# ORDENLƏR, MEDALLAR, DÖŞ NİŞANLARI VƏ FƏXRİ ADLAR

- Ümumi məlumat
- Azərbaycan Xalq Cümhuriyyəti dövrünün orden və medallarının eskizləri
- Azərbaycan SSR-in ordenləri, medalları və döş nişanları
- Azərbaycan Respublikasının ordenləri, medalları və döş nişanları
- Azərbaycan Respublikası ordeninin və medalının ən yaxşı təsvirləri üçün müsabiqə elan olunması haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı: *[5 fevral 1991-ci il]*
- Azərbaycan Respublikasının Dövlət himninin ən yaxşı mətni, Dövlət gerbinin, orden və medalının ən yaxşı təsvirləri üçün müsabiqə keçirilməsi üzrə komissiyanın təşkil edilməsi haqqında Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Qərarı: *[28 mart 1991-ci il]*
- Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu: *[10 noyabr 1992-ci il]*
- "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı: *[10 noyabr 1992-ci il]*
- Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədəAzərbaycan Respublikasının Qanunu: *[26 noyabr 2020-ci il]*
- **Ordenlər**
  - "Heydər Əliyev" ordeni
  - "İstiqlal" ordeni
  - "Şah İsmayıl" ordeni
  - "Azərbaycan Bayrağı" ordeni
  - "Şərəf" ordeni
  - "Şöhrət" ordeni
  - "Dostluq" ordeni
  - "Vətənə xidmətə görə" ordeni
  - "Əmək" ordeni
  - "Rəşadət" ordeni

- “Zəfər” ordeni
- “Qarabağ” ordeni

- **Medallar**
  - "Qızıl Ulduz" medalı
  - "Vətən uğrunda" medalı
  - "İgidliyə görə" medal
  - "Tərəqqi" medalı
  - "Hərbi xidmətlərə görə" medal
  - "Hərbi xidmətdə fərqlənməyə görə" medal
  - "Sərhəddə fərqlənməyə görə" medal
  - "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medal
  - "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı
  - "Qüsursuz xidmətə görə" medal
  - "Dövlət qulluğunda fərqlənməyə görə" medal
  - "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medal
  - "Diplomatik xidmətdə fərqlənməyə görə" medal
  - “Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə” medal
  - "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medal
  - Nizami Gəncəvi adına Qızıl medal
  - “Şücaətə görə” medal
  - “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” medal
  - “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalı
  - “Diplomatik xidmətə verilən töhfəyə görə” medal
  - “Cəsur döyüşçü” medalı
  - “Döyüşdə fərqlənməyə görə” medal
  - “Suqovuşanın azad olunmasına görə” medalı
  - “Cəbrayılın azad olunmasına görə” medal
  - “Xocavəndin azad olunmasına görə” medal
  - “Füzulinin azad olunmasına görə”medal
  - “Zəngilanın azad olunmasına görə” medal
  - “Qubadlının azad olunmasına görə” medal

- “Şuşanın azad olunmasına görə” medal
- “Kəlbəcərin azad olunmasına görə” medal
- “Ağdamın azad olunmasına görə” medal
- “Laçının azad olunmasına görə” medal
- “Vətən müharibəsi iştirakçısı” medalı
- “Vətən Müharibəsi Qəhrəmanı” medalı
- “Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” medal

- Döş nişanları
  - Azərbaycan Respublikası Milli Məclisi deputatının döş nişanı
  - Azərbaycan Respublikası Prezidentinin döş nişanı
  - Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatının fəxri döş nişanı
- Fəxri adlar
- Rəsmi sənədlər

- Azərbaycan Respublikasının fəxri adları haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: *[22 may 1998-ci il]*
- “Azərbaycan Respublikası fəxri adının vəsiqəsi nümunəsinin və Azərbaycan Respublikası fəxri adlarının döş nişanları təsvirinin və eskizlərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 9 iyun tarixli 879 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: *[13 noyabr 2012-ci il]*
- “20 Yanvar Şəhidi” fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: *[31 mart 1998-ci il]*
- “20 Yanvar şəhidi” fəxri adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı: *[29 dekabr 1998-ci il]*
- Azərbaycan Respublikasının Fəxri adları haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı: *[14 may 1999-cu il]*
- "Heydər Əliyev" ordeninin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu: *[22 aprel 2005-ci il]*
- Azərbaycan Respublikasının “İstiqlal” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu: *[6 dekabr 1993-cü il]*

- **Azərbaycan Respublikasının “Şah İsmayıl” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu: [6 dekabr 1993-cü il]**
- **Azərbaycan Respublikasının “Azərbaycan Bayrağı” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[6 dekabr 1993-cü il]*
- **"Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı:** *[12 mart 2007-ci il]*
- **Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[16 fevral 2007-ci il]*
- **Azərbaycan Respublikasının “Şöhrət” ordeninin statutu və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[6 dekabr 1993-cü il]*
- **"Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı:** *[12 mart 2007-ci il]*
- **Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[16 fevral 2007-ci il]*
- **Azərbaycan Respublikasının "Vətənə xidmətə görə" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu:** *[7 noyabr 2003-cü il]*
- **Azərbaycan Respublikasının “Əmək” ordeninin təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu:** *[29 noyabr 2016-cı il]*
- **Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında Azərbaycan Respublikasının Qanunu:** *[7 iyul 1992-ci il]*
- **“Azərbaycanın Milli Qəhrəmanı” adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu:** *[15 iyul 1992-ci il]*
- **Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[6 fevral 1998-ci il]*

- **Azərbaycan Respublikasının "Vətən uğrunda" medalı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu:** *[29 dekabr 1998-ci il]*
- **Azərbaycan Respublikasının «Vətən uğrunda» medalının təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[8 dekabr 2000-ci il]*
- **Azərbaycan Respublikasının "İgidliyə görə" medalı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu:** *[29 dekabr 1998-ci il]*
- **Azərbaycan Respublikasının «İgidliyə görə» medalının təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[8 dekabr 2000-ci il]*
- **Azərbaycan Respublikasının "Tərəqqi" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[6 dekabr 1993-cü il]*
- **Azərbaycan Respublikasının "Hərbi xidmətlərə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[6 dekabr 1993-cü il]*
- **Azərbaycan Respublikasının "Hərbi xidmətdə fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[17 may 2002-ci il ]*
- **Azərbaycan Respublikasının "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[6 dekabr 1993-cü il]*
- **Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[17 may 2002-ci il]*
- **Azərbaycan Respublikasının "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[17 may 2002-ci il]*
- **Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** *[17 may 2002-ci il]*
- **"Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu:** *[7 noyabr 2003-cü il]*

- **Azərbaycan Respublikasının "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** ***[21 aprel 2006-cı il]***
- **"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005-2010)" Azərbaycan Respublikasının yubiley medalının, "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə", "Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə" və "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" Azərbaycan Respublikasının medallarının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu:** ***[22 oktyabr 2010-cu il]***
- **Azərbaycan Respublikası Prezidentinin döş nişanı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı:** ***[14 oktyabr 2008-ci il ]***
- **Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatının diplomu və fəxri döş nişanının təsvirlərinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı:** ***[8 may 2010-cu il]***
- **"Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı:** ***[20 sentyabr 2007-ci il]***
- **"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı:** ***[17 oktyabr 2007-ci il]***
- **"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı:** ***[29 oktyabr 2007-ci il]***
- **İstifadə olunmuş ədəbiyyat**

## Ümumi məlumat

Azərbaycanın ilk ordeni respublikada sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan İnqilab Komitəsinin sərəncamı ilə təsis edilən Azərbaycan SSR-in "Qırmızı Bayraq" ordeni olmuşdur. Hazırlanmasında RSFSR-in "Qırmızı Bayraq" ordeni əsas kimi götürülmüş, 1920 ilin noyabrından təqdim olunmağa başlanmışdı; ikinci orden Azərbaycan SSR-in "Qırmızı Əmək Bayrağı" ordeni idi; hazırlanması üçün 1921 ilin iyununda müsabiqə elan edilmiş, 1922 ildə Azərbaycan MİK sessiyası yeni ordenin şəklinin layihəsini və Ümumi əsasnaməsini təsdiq etmişdir. Hər iki ordenlə təltifolunma 30-cu illərin ortalarından dayandırılmışdır. 1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən sonra Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında Azərbaycan Respublikasının 1992 il 10 noyabr tarixli Qanunu, həmin Qanuna dəyişikliklər və əlavələr edilməsi barədə 1993 il dekabr tarixli Qanunu, həmçinin 2003 il 7 noyabr tarixli və 2005 il 22 aprel tarixli qanunları ilə aşağıdakı ordenlər təsis edilmişdir: "Heydər Əliyev" ordeni; "İstiqlal" ordeni; "Şah İsmayıl" ordeni; "Azərbaycan bayrağı" ordeni; "Şöhrət" ordeni; "Vətənə xidmətə görə" ordeni. 12 mart 2007-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə "Şərəf" və "Dostluq" ordenləri təsis edilmişdir.

Azərbaycan Respublikasının ən yüksək təltifi olan "Heydər Əliyev" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycanın tərəqqisinə, əzəmətinin və şöhrətinin artmasına müstəsna töhfə verən xidmətlərinə görə; Vətənin müdafiəsində, Azərbaycanın dövlət mənafelərinin qorunmasında göstərilmiş mərdlik və şücaətə, həmçinin xarici vətəndaşlara Azərbaycan Respublikası qarşısında görkəmli xidmətlərinə görə verilir.

"İstiqlal" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikasında milli azadlıq hərəkatında müstəsna xidmətlərinə, Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında xüsusilə görkəmli xidmətlərinə, Azərbaycan Respublikasının milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə verilir.

Azərbaycan Respublikasının ali hərbi ordeni olan "Şah İsmayıl" ordeni ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (ARSQ) ali rütbəli zabitləri, hərbi hissələrin və birləşmələrin komandirləri ARSQ-nin təşkilində və möhkəmləndirilməsində, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsində, respublikada fövqəladə halların aradan qaldırılmasında xüsusi xidmətlərinə görə təltif edilirlər.

"Azərbaycan Bayrağı" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında milli azadlıq hərəkatında iştirakına və ictimai-siyasi fəaliyyətinə görə; hərb elminin və hərb texnikasının inkişafında, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında, dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə verilir.

"Şöhrət" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə iqtisadi, elmi-texniki, sosial-mədəni inkişafda, sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və əməkdaşlığın inkişafında; sənaye,

nəqliyyat, rabitə, tikinti sahələrində, xalq təsərrüfatının digər sahələrində görkəmli əmək nəticələrinə, elm, təhsil və səhiyyə sahəsində xüsusi xidmətlərinə görə verilir.

"Vətənə xidmətə görə" ordeni Azərbaycan Respublikasına sadiqliyə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirməyə görə; dövlət qulluğunda səmərəli fəaliyyətə, yüksək peşəkarlığa və xüsusi nailiyyətlərə, milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərə görə verilir.

"Şərəf" ordeni Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında böyük xidmətlərə, milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərə, iqtisadi, elmi-texniki, sosial-mədəni inkişafda müstəsna xidmətlərə, elm, mədəniyyət, ədəbiyyat, incəsənət, təhsil və səhiyyə sahələrində böyük xidmətlərə görə verilir.

"Dostluq" ordeni Azərbaycan Respublikası ilə xarici ölkələr arasında dostluq, iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə, xalqlar arasında dostluğun möhkəmləndirilməsi işində görkəmli xidmətlərinə görə, dünyada, regionda və müxtəlif ölkələrdə sülhün və əmin-amanlığın bərqərar olmasında, sivilizasiyalar arasında konstruktiv münasibətlərin yaradılmasında və mədəniyyətlərarası dialoqun qurulmasında görkəmli xidmətlərinə görə

Azərbaycan Respublikasının "Qızıl Ulduz", "Vətən uğrunda", "İgidliyə görə", "Tərəqqi", "Hərbi xidmətlərə görə", "Hərbi xidmətdə fərqlənməyə görə", "Sərhəddə fərqlənməyə görə", "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı", "Qüsursuz xidmətə görə", "Dövlət qulluğunda fərqlənməyə görə", "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə", «Diplomatik xidmətdə fərqlənməyə görə» medalları ilə yanaşı, bir sıra yubiley medalları da təsis edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən dövlət təltifləri Azərbaycan Respublikası Prezidenti tərəfindən həyata keçirilir.

***Ədəbiyyat:*** *Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə, "Azərbaycan" cildi. Bakı, 2007, "Azərbaycan Respublikasının orden və medalları" məqaləsi.*

## Azərbaycan Xalq Cümhuriyyəti dövrünün orden və medallarının eskizləri

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra milli respublikanın gerbi, bayrağı, orden və medallarının təsis etmək zərurəti meydana çıxmışdı. 1919-1920-ci illərdə mətbuatda Dövlət himni, Dövlət gerbi, Dövlət möhürü və ordenlərin layihələrinin yaradılması ilə bağlı müsabiqələr keçirilməsi haqqında elanlar dərc edilmişdir.

30 yanvar 1920-ci ildə hərbi ordenlərin layihələrinin hazırlanması haqqında qərar qəbul edilmişdir. Müsabiqəyə "Müstəqillik" ordeninin 100-ə yaxın eskizi təqdim edilmişdir ki, onlar hazırda Eskizlərdə əsasən üçrəngli bayraq, səkkizguşəli ulduz, aypara, qılınc, Azərbaycan əsgəri və məscid təsvirləri yer almışdır. Eskizlərin ən yaxşı layihələrinin bir qismi isə Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri olmuş Fətəli xan Xoyskinin Moskvadakı Dövlət Tarix Muzeyindəki şəxsi arxivində saxlanılır.

Eskizlərin müəllifləri nəinki Bakıda, hətta Tiflsdə də yaşayıb-yaradan rəssamlar olublar. Mütəxəssis rəssam və sənətşünasların nəzər-diqqətini Əzim Əzimzadənin, Ələsgər Əliyevin, eyni zamanda «Molla Nəsrəddin»çi rəssamlardan Tiflisdə yaşayan Beniamin Telenqater (Beno), Oskar Şmerlinq kimi sənətkarların dəst-xətti cəlb edir. Bu təsvirlər bədii cəhətdən zənginliyi ilə böyük maraq doğurur.

Təəssüflər olsun ki 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu başlanan işləri axıra çatdırmağa imkan vermədi.

1990-cı ildə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun Partiya arxivi (indiki Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi) fondlarında 100-ə yaxın ilk Azərbaycan ordeninin müsabiqəyə təqdim olunan eskizləri aşkar edilmişdir. Bu eskizlər 1992-ci ildə Bakıda "İşıq" nəşriyyatında çap olunmuş "Azərbaycan Demokratik Respublikasının rəmzləri (1918-1920)" albomunda öz əksini tapmışdır.

### "Müstəqillik ordenləri"nin eskizlərinin nümunələri

























## “Tərəqqi” devizi altında 4-cü dərəcəli müstəqillik ordeni





## "Birlikdən müstəqilliyə və dünyaya" devizi altında Azərbaycan Respublikasının Müstəqillik ordenləri





## "Yuliya" devizi altında Müstəqillik ordenləri









## “Dinc xidmətlərə görə” ordenlər





## “Hərbi xidmətlərə görə” ordenlər













## "Hərbi xidmətlərə görə" və "Dinc xidmətə görə" ordenlər












## "A" devizi altında hərbi və mülki ordenlər


















## Azərbaycan SSR-in ordenləri, medalları və döş nişanları

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldıqdan sonra Azərbaycan İctimai Şuralar Cümhuriyyəti (Azərbaycan SSR) adı altında bolşevik hakimiyyəti qurulmuşdur. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan özünün dövlət atributlarını sovet Rusiyasının atributlarına uyğunlaşdırmaq məcburiyyətində qalmışdı. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından dərhal sonra respublika ərazisində çar Rusiyasının ordenlərinin və digər fərqləndirici nişanlarının taxılması qadağan edilmişdi.



Sovet Azərbaycanının ilk mükafatı 1920-ci ilin yayında təsis edilmiş "Fəxri Proletar Döş Nişanı" olmuşdur. Bu nişan 1921-ci ilin sonunadək mövcud olmuşdur. Ovalşəkilli formada gümüşdən düzəldilmiş və qızıl suyuna çəkilmiş bu nişanın ölçüsü 3,5 x 4,5 sm olmuş, hər iki tərəfdən yarpaqlarla haşiyələnmişdir (soldan hərbi xidmətləri simvolizə edən dəfnə yarpağı ilə, sağdan isə mülki xidmətləri simvolizə edən palıd yarpaqları ilə). Fəxri nişanın aşağısında qırmızı rənglə mina qatı çəkilmiş lentin üzərində "АССР" (yəni - Азербайджанская Советская Социалистическая Республика) abreviaturası həkk olunmuşdur. Nişanın ortasında Yer kürəsinin mavi və sarı rənglərlə minalanmış qabarıq təsviri üzərində üzüyuxarı şəkildə qırmızı rəngli ay-ulduz yerləşdirilmişdir. Nişanın yuxarı hissəsində 1920 rəqəmi yazılmışdır. Nişanın çevrəsi boyu ərəb qrafikası ilə "Azərbaycan Şura Cümhuriyyəti" sözləri yazılmışdır. Nişan Bakı zərgərləri tərəfindən əllə hazırlanırdı.



Mükafat Azərbaycan İnqilab Komitəsinin qərarı ilə təltif edilirdi. 1920-1921-ci illərdə "Fəxri Proletar Döş Nişanı" ilə təxminən 20 nəfər təltif olunmuşdur.

Azərbaycan İnqilab Komitəsinin təşəbbüsü ilə 1920-ci ildə "Qırmızı bayraq" ordeni təsis edilmişdir. Bu ordenin eskizinin müəllifi İbrahim ağa Vəkilov olmuşdur və eskizin əsasını Rusiyanın "Qırmızı bayraq" ordeni təşkil etmişdir. Ovalşəkilli qızıl suyuna çəkilmiş gümüşdən düzəldilən ordenin ölçüsü 5 x 4,5 sm olmuşdur və hər iki tərəfdən palıd əklili ilə haşiyələnmişdir. Ordenin yuxarı hissəsində üzərində türk dilində ərəb qrafikası ilə "Bütün ölkələrin proletarları, birləşin!" və rus dilində "Пролетарии всех стран, соединяйтесь!" sözləri yazılmış qırmızı bayaq yerləşdirilmişdir. Ordenin ortasında Qırmızı mina qatı çəkilmiş qırmızı ulduz və oraq-çəkic yerləşdirilmişdir. Ordenin milli əlaməti onun ortasında yerləşdirilən qırmızı mina qatı çəkilmiş aypara ilə xarakterizə olunur. Ordenin aşağı yarımçevrəsində ağ mina qatı üzərində ərəb qrafikası ilə "Azərbaycan İctimai Şura Cümhuriyyəti" sözləri qravüra edilmişdir. Ordenin lap aşağı hissəsində isə qırmızı mina qatı üzərində rus hərfləri ilə "АССР" (yəni - Азербайджанская



Советская Социалистическая Республика) abreviaturası həkk olunmuşdur. Bu ordenlə 53 nəfər mükafatlandırılmışdır.

1921-ci ilin iyununda Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin təşəbbüsü ilə "Qırmızı Əmək Bayrağı" ordeni təsis edilmişdir. Eskizinin müəllifi zabit M.Vlasov olan orden gümüşdən hazırlanmışdır və qırmızı rəngli mina qatı və qızıl suyu ilə işlənmişdir. Bakı zərgərləri tərəfindən hazırlanan ordenin mərkəzində döymə üsulu ilə oraq və çəkic təsvir edilmişdir. Ordenin aşağısında respublikanın gerbindən fraqment - aypara içərisində üzərində oraq və çəkic təsviri olan beşguşəli qırmızı ulduz təsvir edilmişdir.




Yuxarıda mina qatı ilə işlənmiş lentin üzərində Azərbaycan dilində ərəb qrafikası ilə "Bütün dünyan işçiləri, birləşiniz! Dünyaya hakim zəhmət olacaqdır." Orden üç cərgə qızılı rəngli sünbüllərlə haşiyələnmişdir. sünbüllərin üzərində qırmızı mina qatı çəkilmiş qurşağın üzərində ərəb hərfləri ilə respublikanın adının "AİŞC" (Azərbaycan İctimai Şura Cümhuriyyəti) abreviaturası həkk olunmuşdur. 3 dekabr 1929-cu ildə Azərbaycan MİK "Qırmızı Əmək Bayrağı" ordeninin statutunu təsdiq etmişdir. Həmin vaxt bu ordenin təsvirində dəyişiklik edilmişdir. Ordenin yeni variantının müəllifi rəssam Beniamin Telenqater (Beno) olmuşdur

Ordenin yeni nümunəsi də gümüşdən hazırlanmış və qızıl suyuna çəkilmişdir. Ölçüsü 5 x 4 sm olan ordenin mərkəzində beşguşəli trapesiyavari lövhənin üzərində fabrik, zavod və neft buruqları təsvir edilmişdir. Lövhənin korpusunun üzərində qızılı oraq və çəkic qabardılmışdır. Ordenin üzərində çarpazvari iki bayraq təsvir edilmişdir. Bayraqların dəstəklərinin arasındakı ağ mina özülünün üzərində Azərbaycanın emblemi olan qırmızı aypara içərisində beşguşəli qırmızı ulduz həkk olunmuşdur. Sağ tərəfdəki bayrağın üzərində Azərbaycan dilində "Bütün ölkələrin proletarları, birləşiniz!", sol tərəfdəki bayrağın üzərində isə respublikanın adının abreviaturası - ASSC (Azərbaycan Sovet Sosialist Cümhuriyyəti) sözləri yazılmışdır. Orden hər iki tərəfdən taxıl sünbülü, onun aşağısında palıd yarpaqları və nəhayət, pambıq qozaları ilə əhatələnmişdir. 1933-cü ilin sonlarında "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif dayandırılmışdır. Bu ordenin 1929-cu il nümunəsi ilə təqribən 300 təltif qeydə alınmışdır.

***Ədəbiyyat:*** *Санубар Касимова. Фалеристика Азербайджана первой половины XX века, «İRS- Наследие», №3, 2009 г., s. 24-28.*

# Azərbaycan Respublikasının ordenləri, medalları və döş nişanları

## Azərbaycan Respublikası ordeninin və medalının ən yaxşı təsvirləri üçün müsabiqə elan olunması haqqında Azərbaycan Respublikası Ali Sovetinin Qərarı

Azərbaycan Respublikasının Ali Soveti qərara alır:

**1.** Azərbaycan Respublikası vətəndaşlarının göstərdikləri şəxsi mərdliyə görə, Azərbaycanın rifahı naminə elmdə, mədəniyyətdə, incəsənətdə, əməkdə, ictimai-siyasi fəaliyyətdə ən yüksək göstəricilərə görə təqdim ediləcək Azərbaycan Respublikası ordeninin və medalının ən yaxşı təsvirləri üçün müsabiqə elan olunsun.

**2.** Azərbaycan Respublikası ordeninin və medalının ən yaxşı təsvirləri üçün hərəsi 2,5 min manat olan iki mükafat təsis edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Sovetinə tapşırılsın ki, göstərilən mükafatların verilməsi üçün lazımi vəsait ayırsın.

**4.** Müsabiqəyə yekun vurmaq Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinə tapşırılsın.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**

*Bakı şəhəri, 5 fevral 1991-ci il,*
*№ 22-XII*

# Azərbaycan Respublikasının Dövlət himninin ən yaxşı mətni, Dövlət gerbinin, orden və medalının ən yaxşı təsvirləri üçün müsabiqə keçirilməsi üzrə komissiyanın təşkil edilməsi haqqında Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Qərarı

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti «Azərbaycan Respublikasının Dövlət himninin ən yaxşı mətni üçün müsabiqə elan olunması haqqında», «Azərbaycan Respublikasının Dövlət gerbinin ən yaxşı təsviri üçün müsabiqə elan olunması haqqında» və «Azərbaycan Respublikası orden və medalının ən yaxşı təsvirləri üçün müsabiqə elan olunması haqqında» Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 5 fevral tarixli qərarlarını əsas tutaraq **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət himninin ən yaxşı mətni, Dövlət gerbinin, orden və medalının ən yaxşı təsvirləri üçün müsabiqə keçirilməsi üzrə komissiya aşağıdakı tərkibdə təşkil edilsin:

- **Muradəliyev Fazil Qulam oğlu** — Azərbaycan Respublikası Ali Sovetinin Mədəniyyət və dini əqidə məsələləri daimi komissiyasının sədri (sədr)
- **Bünyadov Ziya Musa oğlu** — Azərbaycan Elmdər Akademiyasının vitse-prezidenti, Azərbaycanın əməkdar elm xadimi
- **Vahabzadə Bəxtiyar Mahmud oğlu** — Azərbaycanın xalq şairi
- **Qasımzadə Fuad Feyzulla oğlu** — M.Rəsulzadə adına Bakı Dövlət Universitetinin kafedra müdiri, Azərbaycan Respublikası Prezidentinin müşaviri, Azərbaycanın əməkdar elm xadimi, Azəbaycan Elmlər Akademiyasının müxbir üzvü
- **Quliyev Tofiq Ələkbər oğlu** — Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin birinci katibi
- **Əbdürrəhmanov Nadir Qəmbər oğlu** — Azərbaycan Rəssamlar İttifaqı Rəyasət Heyətinin üzvü, Azərbaycanın xalq rəssamı
- **Əzizov Arif Möhübəli oğlu** — rəssam, Azərbaycan TKGİ mükafatı laureatı
- **Kazımzadə Kazım Məmmədəli oğlu** — R.Mustafayev adına Azərbaycan Dövlət Muzeyinin direktoru, Azərbaycanın xalq rəssamı
- **Məmmədov Aydın Mirsaleh oğlu** — Azərbaycan Yazıçılar İttifaqı yanında respublika bədii tərcümə və ədəbi əlaqələr mərkəzinin sədri, Qarabağa Xalq Yardımı Komitəsi sədrinin müavini
- **Məmmədova Fəridə Cəfər qızı** — Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun böyük elmi işçisi, Azərbaycanın əməkdar elm xadimi
- **Nəbiyev Bəkir Əhməd oğlu** — ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının ədəbiyyat, dil və incəsənət şöbəsinin akademik katibi
- **Polad Bülbül oğlu** — Azərbaycan Respublikasının mədəniyyət naziri
- **Rzayev Anar Rəsul oğlu** — Azərbaycan Yazıçılar İttifaqının birinci katibi
- **Rüstəmxanlı Sabir Xudu oğlu** — «Azərbaycan» qəzetinin baş redaktoru

- **Talıbzadə Kamal Abdulla Şaiq oğlu** — ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının akademiki
- **Xəlilov Fərhad Qurban oğlu** — Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri, Azərbaycanın əməkdar incəsənət xadimi
- **Cabir Novruz** — şair, «Ədəbiyyat qəzeti»nin baş redaktoru

2. Müəyyən edilsin ki, işlər komissiyaya 1991-ci il mayın 25-dək təqdim olunmalıdır.

3. Komissiya verilmiş təkliflərin geniş müzakirəsini təşkil etsin və Azərbaycan Respublikasının Dövlət Himni mətnlərinin, Dövlət gerbi, orden və medalı təsvirlərinin ən yaxşı layihələrini seçsin və öz rəyini Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinə təqdim etsin.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**

*Bakı şəhəri, 28 mart 1991-ci il*
*№ 90-XII*

## Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

**Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:**

**1. Azərbaycan Respublikasının aşağıdakı ordenləri təsis edilsin:**

Azərbaycan Respublikasının ən yüksək təltifi – "Heydər Əliyev" ordeni;

*"Zəfər" ordeni;*

*"Qarabağ" ordeni;*

"İstiqlal" ordeni;

Azərbaycan Respublikasının ali hərbi ordeni – "Şah İsmayıl" ordeni;

"Azərbaycan bayrağı" ordeni;

*"Rəşadət" ordeni;*

"Şərəf" ordeni;

"Şöhrət" ordeni;

"Dostluq" ordeni;

"Vətənə xidmətə görə" ordeni;

*"Əmək" ordeni.*

**2. Azərbaycan Respublikasının aşağıdakı medalları təsis edilsin:**

*"Vətən Müharibəsi Qəhrəmanı" medalı;*

*"Qızıl Ulduz" medalı;*

"Vətən uğrunda" medalı;

"İgidliyə görə" medalı;

*"Cəsur döyüşçü" medalı;*

*"Döyüşdə fərqlənməyə görə" medalı;*

*"Suqovuşanın azad olunmasına görə" medalı;*

*"Cəbrayılın azad olunmasına görə" medalı;*

*"Xocavəndin azad olunmasına görə" medalı;*

*"Füzulinin azad olunmasına görə" medalı;*

*"Zəngilanın azad olunmasına görə" medalı;*

*"Qubadlının azad olunmasına görə" medalı;*

*"Şuşanın azad olunmasına görə" medalı;*

*"Kəlbəcərin azad olunmasına görə" medalı;*

*"Ağdamın azad olunmasına görə" medalı;*

*"Laçının azad olunmasına görə" medalı;*

*"Vətən müharibəsi iştirakçısı" medalı;*

*"Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalı;*

"Tərəqqi" medalı;

"Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyi" yubiley medalı;

*"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı;*

"Hərbi xidmətlərə görə";
"Hərbi xidmətdə fərqlənməyə görə" medalı;
*"Şücaətə görə" medalı;*
"Sərhəddə fərqlənməyə görə" medalı;
"Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı;
"Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı;
"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley medalı;
"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı;
*"Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı;*
"Qüsursuz xidmətə görə" medalı;
"Dövlət qulluğunda fərqlənməyə görə" medalı;
"Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalı;
"Polis veteranı" medalı;
"Azərbaycan Polisinin 90 illiyi" yubiley medalı;
"Azərbaycan Polisinin 95 illiyi (1918-2013)" yubiley medalı;
*"Azərbaycan Polisinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı;*
*Azərbaycan Prokurorluğunun 100 illiyi (1918–2018)" Azərbaycan Respublikasının yubiley medalı;*
"Azərbaycan Respublikası milli təhlükəsizlik orqanlarının 90 illiyi (1919-2009)" yubiley medalı;
"Azərbaycan Respublikası milli təhlükəsizlik orqanlarının 95 illiyi (1919-2014)" yubiley medalı;
*"Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalı;*
"Azərbaycan Sərhəd Mühafizəsinin 90 illiyi (1919 — 2009)" yubiley medalı;
"Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi (1919-2014)" yubiley medalı;
*"Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" yubiley medalı;*
"Diplomatik xidmətdə fərqlənməyə görə" medalı;
"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illiyi (1919-2009)" yubiley medalı;
*"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" yubiley medalı;*
*"Diplomatik xidmətə verilən töhfəyə görə" medalı;*
*"Diaspor fəaliyyətində xidmətə görə" medalı;*
"Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi (2000-2010)" yubiley medalı;
"Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı;
"Vergi orqanları ilə səmərəli əməkdaşlığa görə" medalı;
"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005-2010)" yubiley medalı;
*"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 10 illiyi (2005-2015)" yubiley medalı;*
*"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" yubiley medalı;*
"Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı;

"Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə" medalı;
"Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" medalı;
*"Müdafiə sənayesi sahəsində əməkdaşlığa görə" medalı;*
*"Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi (2005-2020)" yubiley medalı;*
"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 20 illiyi (1992-2012)" yubiley medalı;
*"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 25 illiyi (1992-2017)" yubiley medalı;*
*"Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" yubiley medalı;*
*"Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" medalı;*
"Ədliyyə sahəsində fərqlənməyə görə" medalı;
*"Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalı;*
"Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin 20 illiyi (1993-2013)" yubiley medalı;
*"Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin 25 illiyi (1993-2018)" yubiley medalı;*
"Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı;
"Miqrasiya orqanları ilə səmərəli əməkdaşlığa görə" medalı;
"Miqrasiya orqanlarında qüsursuz qulluğa görə" medalı;
*"Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 10 illiyi (2007-2017)" yubiley medalı;*
*"Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)" yubiley medalı;*
*"Mülki aviasiya sahəsində xidmətlərə görə" medalı;*
*"Azərbaycan Respublikası Mülki Aviasiyasının 75 illiyi (1938-2013)" Azərbaycan Respublikasının yubiley medalı;*
*"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) təsisatının 20 illiyi (2002–2022)" Azərbaycan Respublikasının yubiley medalı;*
*Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı;*
*"Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə" medalı;*[1]
*"Azərbaycan avtomobil yolları – 100 il (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı;*
*"Gəmiçilik sahəsində xidmətlərə görə" medalı;*
*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)" yubiley medalı;*
*"Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" yubiley medalı;*
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi (1920-2020)" yubiley medalı;*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 – 2021)" yubiley medalı;*
*"Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" yubiley medalı;*
*"Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)" Azərbaycan Respublikasının yubiley medalı;*
*"Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə" medalı.*

**3.** Orden və medal - vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifidir. Bu Qanundan başqa digər normativ hüquqi aktlarda orden və

medallar (o cümlədən orden və ya medal ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis oluna bilməz.

***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 noyabr 1992-ci il*
*№ 370*

## «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikası Qanunu imzalandığı andan qüvvəyə minsin.

2. Azərbaycan Respublikası Milli Məclisinin Dövlət quruculuğu və hüquq siyasəti daimi komissiyasına tapşırılsın ki, iki həftə ərzində Azərbaycan Respublikasının ordenlərinin statusunu və medallarının əsasnamələrinin layihələrini hazırlayıb Milli Məclisin müzakirəsinə versin.

**Azərbaycan Respublikası Ali Sovetinin sədri**

*Bakı şəhəri, 10 noyabr 1992-ci il*
*№ 370-A*

## Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədəAzərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 174-VIQD və 175-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddəyə "Azərbaycan Respublikasının ən yüksək təltifi – "Heydər Əliyev" ordeni;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"Zəfər" ordeni;

"Qarabağ" ordeni;";

1.2. 2-ci maddəyə "Qızıl Ulduz" medalı;" hissəsindən əvvəl "Vətən Müharibəsi Qəhrəmanı" medalı;" hissəsi və "İgidliyə görə" medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"Cəsur döyüşçü" medalı;

"Döyüşdə fərqlənməyə görə" medalı;

"Suqovuşanın azad olunmasına görə" medalı;

"Cəbrayılın azad olunmasına görə" medalı;

"Xocavəndin azad olunmasına görə" medalı;

"Füzulinin azad olunmasına görə" medalı;

"Zəngilanın azad olunmasına görə" medalı;

"Qubadlının azad olunmasına görə" medalı;

"Şuşanın azad olunmasına görə" medalı;

"Kəlbəcərin azad olunmasına görə" medalı;

"Ağdamın azad olunmasına görə" medalı;

"Laçının azad olunmasına görə" medalı;

“Vətən müharibəsi iştirakçısı” medalı;

“Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə” medalı;”.

**Maddə 2.** “Azərbaycan Respublikasının “Zəfər” ordeninin statutu” və “Azərbaycan Respublikasının “Zəfər” ordeninin təsviri” təsdiq edilsin.

**Maddə 3.** “Azərbaycan Respublikasının “Qarabağ” ordeninin statutu” və “Azərbaycan Respublikasının “Qarabağ” ordeninin təsviri” təsdiq edilsin.

**Maddə 4.** “Vətən Müharibəsi Qəhrəmanı” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 5.** “Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Cəsur döyüşçü” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 6.** “Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 7.** “Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 8.** “Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 9.** “Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 10.** “Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Füzulinin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 11.** “Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Zəngilanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 12.** “Qubadlının azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Qubadlının azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 13.** “Şuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Şuşanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 14.** “Kəlbəcərin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Kəlbəcərin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 15.** “Ağdamın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” və “Ağdamın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin.

**Maddə 16.** "Laçının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Laçının azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 17.** "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 18.** "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 noyabr 2020-ci il*
*№: 204-VIQD*

# Ordenlər

## "Heydər Əliyev" ordeni

### "Heydər Əliyev" ordeninin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin çoxillik zəngin siyasi fəaliyyəti xalqımızın dövlətçilik tarixində müstəsna rol oynamışdır.

Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində ötən əsrin 70-ci illərində qoyulmuşdur. 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan SSRİ-nin tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan respublikaya çevrilmiş, ölkəmizin gələcək dövlət müstəqilliyi üçün möhkəm təməl yaradılmışdır. Sürətli iqtisadi inkişaf nəticəsində Azərbaycan İttifaq büdcəsindən dotasiya almayan, öz-özünü təmin edə bilən az sayda respublikalardan biri olmuşdur. Həmin illərdə Heydər Əliyevin səyləri ilə xalqımızın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına güclü təkan verən tədbirlər həyata keçirilmişdir. Azərbaycan SSRİ-nin tərkibindəki üç respublikadan biri idi ki, onun Konstitusiyasında xalqın danışdığı əsas dilə - Azərbaycan dilinə dövlət statusu verilmişdi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı ilk illərdə bir-birinin ardınca hakimiyyətə gələn qüvvələrin səriştəsiz siyasəti nəticəsində ölkənin parçalanması və milli dövlətçiliyin süquta uğraması təhlükəsi yarandı. Azərbaycan vətəndaş müharibəsi astanasında idi. Ermənistanın işğalçılıq siyasəti, ölkə daxilində hökm sürən siyasi çəkişmələr Azərbaycan dövlətinin varlığını təhlükə altında qoydu. Belə bir ağır və mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu.

1993-cü ilin iyununda Azərbaycan parlamentinin sədri seçilən Heydər Əliyev ölkədə yaranmış siyasi böhranın və hakimiyyət boşluğunun aradan qaldırılmasına nail oldu. Hərc-mərclik, özbaşınalıq hallarına, zorakılıq, silah işlətmək yolu ilə hakimiyyətə gəlmək praktikasına son qoyuldu, ictimai-siyasi sabitlik bərqərar edildi. Ölkədə peşəkar parlament yaradıldı. Bütün bu işlərin həyata keçirilməsində Heydər Əliyev həmişə xalqa arxalanmış və onun tam dəstəyini almışdır.

Heydər Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanaraq qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşdirmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı.

Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi on illik dövr ərzində Heydər Əliyev ölkəmizi təhlükə və çətinliklərdən qurtararaq ardıcıl inkişaf yoluna çıxarmışdır. Bu illər ərzində dövlət idarəçiliyi mexanizmi yenidən yaradılmış, nizami ordu qurulmuş, geniş

miqyaslı siyasi, hüquqi, iqtisadi, sosial və mədəni islahatlar həyata keçirilmiş, ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilmiş, müstəqil Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən yeni neft strategiyası hazırlanaraq uğurla gerçəkləşdirilməyə başlanmışdır. Nəticə etibarilə Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət qurulmuş, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atılmışdır. Dövlətimiz dünya birliyində layiqli yerini tutmuş, bölgədə geosiyasi mövqelərini möhkəmləndirərək böyük beynəlxalq nüfuz qazanmışdır. Azərbaycançılıq ideyası şüurlara hakim kəsilmiş, milli birlik və həmrəylik təmin edilmişdir.

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında müstəsna tarixi xidmətlərini nəzərə alaraq və onun xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. "Heydər Əliyev" ordeni təsis edilsin.

II. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının 1992-ci il 10 noyabr tarixli Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 996; 1993-cü il, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 12 (I kitab), maddə 677) 1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının aşağıdakı ordenləri təsis edilsin:

- Azərbaycan Respublikasının ən yüksək təltifi - "Heydər Əliyev" ordeni;
- "İstiqlal" ordeni;
- Azərbaycan Respublikasının ali hərbi ordeni - "Şah İsmayıl" ordeni;
- "Azərbaycan bayrağı" ordeni;
- "Şöhrət" ordeni;
- "Vətənə xidmətə görə" ordeni."

III. "Heydər Əliyev" ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 aprel 2005-ci il*
*№ 896-IIQ*

## "Heydər Əliyev" ordeninin Statutu

*Azərbaycan Respublikasının*
*2005-ci il 22 aprel tarixli 896-IIQ nömrəli*
*Qanunu ilə təsdiq edilmişdir*

**1.**"Heydər Əliyev" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına aşağıdakı hallarda verilir:

1.1. Azərbaycanın tərəqqisinə, əzəmətinin və şöhrətinin artmasına töhfə verən müstəsna xidmətlərinə görə;

1.2. Vətənin müdafiəsində, Azərbaycanın dövlət mənafelərinin qorunmasında göstərilmiş mərdlik və şücaətə görə.

**2.**"Heydər Əliyev" ordeni Azərbaycan Respublikasının Prezidentinə onun statusuna görə verilir.

**3.**"Heydər Əliyev" ordeni əcnəbilərə aşağıdakı hallarda verilir:

3.1. Azərbaycan Respublikası qarşısında görkəmli xidmətlərinə görə;

3.2. Azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə;

3.3. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında siyasi, iqtisadi, elmi və mədəni əlaqələrin qurulmasında və inkişaf etdirilməsində xüsusi xidmətlərinə görə.

**4.**"Heydər Əliyev" ordeninin qılınclı ulduzu və qılınclı zənciri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndində müəyyənləşdirilmiş qaydada verilir.

**5.**"Heydər Əliyev" ordeninin ulduzu döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan əvvəl taxılır.

## "Heydər Əliyev" ordeninin təsviri

*Azərbaycan Respublikasının*
*2005-ci il 22 aprel tarixli 896-IIQ nömrəli*
*Qanunu ilə təsdiq edilmişdir*

"Heydər Əliyev" ordeni ulduzdan, orden zəncirindən və nişandan ibarətdir.

"Heydər Əliyev" ordeninin ulduzu və zənciri qılınclı və qılıncsız olur.

Ordenin döşə taxılmaq üçün nəzərdə tutulan ulduzu səkkizguşəli olub gümüşdən hazırlanmışdır. Ulduzun guşələri gül ləçəkləri şəklində işlənmişdir. Ulduzun əks uclarının arasındakı məsafə 82 mm-dir.

Ulduzun üzərində çevrəsi dalğavari olan dairəvi lövhə yerləşdirilmişdir. Qılınclı ulduzda həmin lövhə ulduzun guşələrindən dördünün üzərindən keçərək çarpazlaşan iki qılıncın üstündə dayanır. Qılınclar gümüşdən hazırlanıb qızıl suyuna çəkilmişdir. Hər qılıncın uzunluğu 82 mm, eni 4 mm-dir. Qılıncların hər birinin dəstəyinə brilyant daş bərkidilmişdir.

Dalğavari çevrəli lövhənin ortasında dairəvi medalyondakı cilalanmış lövhə üzərində Heydər Əliyevin barelyefı verilmişdir. Lövhə 750 əyarlı qızıldan hazırlanmışdır. Medalyon, üzərində qırx iki brilyant daş olan daxili halqa ilə əhatə olunmuşdur. Daxili halqanı dövrələyən orta halqanın qırmızı mina çəkilmiş yuxarı hissəsində qabarıq qızılı hərflərlə "HEYDƏR ƏLİYEV" sözləri yazılmışdır, aşağı hissəsi isə rombşəkilli ornament içərisində üç ədəd brilyant daşla bəzədilmişdir, bunların arasında yaşıl mina çəkilmiş qövsvari iki zolaq vardır. Orta halqa çevrəsi dalğavari olan göy rəngli xarici halqa ilə əhatələnir, onun üzərinə üçbucaq oymalar içərisində iyirmi brilyant daş bərkidilmişdir.

**"HEYDƏR ƏLİYEV" ordeni**




"Heydər Əliyev" ordeninin boyundan asılarkən sinəyə düşən nişanı ağ mina çəkilmiş dördguşəli ornament şəklində altlıqdan ibarətdir. Ornamentin qırmızı minalı ulduzlar şəklində olan elementlərinə brilyant daşlar bərkidilmişdir.

Altlığın üstündə göy mina çəkilmiş dördguşəli ornament yerləşir. Ornamentin dörd ucunun hər birinə brilyant daş bərkidilmişdir. Altlıq və onun üstündəki ornament gümüşdən hazırlanıb qızıl suyuna çəkilmişdir.

Nişanın mərkəzi hissəsində 750 əyarlı qızıldan hazırlanmış lövhə yerləşir. Lövhənin üzərinə tünd qırmızı mina çəkilmişdir.

Lövhənin mərkəzində Heydər Əliyevin 750 əyarlı qızıldan hazırlanmış barelyefi yerləşir. Barelyef çarpazlaşdırılmış iki kvadrat şəklində olan düzgün həndəsi formalı çərçivə ilə haşiyələnmişdir. Kvadratların üstünə yüz on iki brilyant daş bərkidilmişdir. Çərçivə gümüşdən hazırlanıb qızıl suyuna çəkilmişdir.

Nişanın hündürlüyü 67 mm, eni 67 mm-dir.



Ordenin zənciri müəyyən qaydada düzülmüş on beş elementdən ibarətdir. Həmin elementlər aşağıdakılardır:

- zəncirin sağ və sol tərəflərində yerləşən, çarpazlaşdırılmış bayraqlardan ibarət olan, göy, qırmızı və yaşıl rəngli mina çəkilmiş iki bəzək lövhəsi. Lövhələrin mərkəzində Azərbaycan Respublikasının Dövlət bayrağının təsviri vardır;

- zəncirin sağ və sol tərəflərində yerləşən, ağ mina çəkilmiş iki dördguşəli ornament. Onların mərkəzində dairəvi medalyon yerləşdirilib qırmızı minalı ornamentlə

haşiyələnmişdir. Medalyonun mərkəzində Heydər Əliyevin inisialları yazılmış venzel vardır. Qılınclı zəncirdə medalyonun altında çarpaz gümüş qılınclar yerləşdirilmişdir;

- zəncirin sağ və sol tərəflərində, habelə yuxarı hissəsində yerləşən göy, qırmızı və yaşıl mina ilə işlənmiş, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri olan üç lövhə.

Göstərilən elementlər 112 brilyant daşla bəzədilmiş lövhəciklər (hərəsində 7 brilyant daş olmaqla 16 lövhəcik) vasitəsilə geniş zəncirə birləşir.

Ordenin arxa tərəfinin səthi hamardır, üstündə ordenin nömrəsi həkk olunmuşdur. Paltara bərkidilmək üçün müvafiq elementi vardır.

Ordenin hazırlanmasında 525 əyarlı 533,29 qram gümüşdən, 999 əyarlı 3,89 qram gümüşdən, 750 əyarlı 57,42 qram qızıldan, 999 əyarlı 6,42 qram qızıldan, cəmi 0,83 karatlıq 8 brilyant daşdan, cəmi 5,34 karatlıq 224 brilyant daşdan, cəmi 1 karatlıq 67 brilyant daşdan, ümumən isə 299 brilyant daşdan istifadə olunmuşdur.

## "İstiqlal" ordeni

## Azərbaycan Respublikasının "İstiqlal" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "İstiqlal" ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 dekabr 1993-cü il*
*№ 754*

## Azərbaycan Respublikasının "İstiqlal" ordeninin Statutu

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 dekabr tarixli 754 saylı*
*Qanunu ilə təsdiq edilmişdir.*

1. Azərbaycan Respublikasının "İstiqlal" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına aşağıdakılara görə verilir:

Azərbaycan Respublikasında milli-azadlıq hərəkatında müstəsna xidmətlərinə görə;

Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında xüsusilə görkəmli xidmətlərinə görə;

Azərbaycan Respublikasının milli-dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə.

2."İstiqlal" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan əvvəl taxılır.

## "İstiqlal" ordeninin təsviri




*Azərbaycan Respublikasının 1998-ci il*
*6 fevral tarixli 429- IQD saylı Qanunu ilə*
*təsdiq edilmişdir*

"İstiqlal" ordeni bir-birinin üzərinə qoyulmuş, biri digərinə nisbətən ox ətrafında dönmüş və ikiüzlü hamar şüaları olan iki gümüş səkkizguşəli ulduzdan ibarətdir.

Üstdəki ulduzun ortasında mavi mina ilə örtülmüş girdə lövhə yerləşir. Bu lövhənin üzərində qanadları açılmış quş və qanadların arasında — yuxarıda səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzdan yuxarıda qanadlar arasında çevrə boyunca "İstiqlal" sözü

yazılmışdır. Quşun, ulduzun təsviri və yazı qabarıqdır, qızıl suyuna çəkilmişdir.

Arxa tərəfi hamar səthlidir, ortasında ordenin nömrəsi həkk olunmuşdur.

Təltif dəstinə aşağıdakılar daxildir:

- boyundan asmaq üçün 27 mm enində, göy çalarlı lenti olan, 50 mm qabarit ölçülü orden;

- paltara bərkidilmək üçün elementi olan, beşguşəli 27 mm x 47,5 mm ölçüdə göy çalarlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilən, 35 mm qabarit ölçülü orden;

- paltara bərkidilmək üçün elementi olan, göy çalarlı, üzərində alov simvolu təsvir edilmiş, ölçüsü 27 mm x 9 mm olan qəlib.

## "Şah İsmayıl" ordeni

## Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 dekabr 1993-cü il*

*№ 755*

### Azərbaycan Respublikasının "Şah İsmayıl" ordeninin Statutu

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 dekabr tarixli 755 saylı Qanunu ilə*
*təsdiq edilmişdir*

1.Azərbaycan Respublikasının ali hərbi ordeni olan "Şah İsmayıl" ordeni ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali zabitləri, hərbi hissələrin və birləşmələrin komandirləri təltif edilirlər.

2."Şah İsmayıl" ordeni aşağıdakılara görə verilir:

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkilində və möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə;
- Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsində xüsusi xidmətlərinə görə;
- görkəmli sərkərdəlik fəaliyyətinə görə;
- respublikada fövqəladə halların nəticələrinin arddan qaldırılmasında xüsusi xidmətlərinə görə.

3."Şah İsmayıl" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "İstiqlal" ordenindən sonra taxılır.

### "Şah İsmayıl" ordeninin təsviri

*Azərbaycan Respublikasının 1998-ci il*
*6 fevral tarixli 429- IQD saylı Qanunu ilə*
*təsdiq edilmişdir.*

"Şah İsmayıl" ordeni düzgün səkkizguşəli ulduz şəklindədir, gümüşdəndir.

Ulduzun mərkəzində, üzü qızıl suyuna çəkilmiş və minalanmış, səkkiz bərabər küncü olan lövhə fonunda Şah İsmayılın əksi profildən təsvir edilmişdir.



Arxa tərəfi hamar səthlidir, ortasında "Şah İsmayıl" yazılmışdır, ondan aşağıda ordenin nömrəsi həkk olunmuşdur.

Təltif dəstinə aşağıdakılar daxildir:

- boyundan asmaq üçün 27 mm enində, qırmızı çalarlı lenti olan, 50 mm qabarit ölçülü orden;

- paltara bərkidilmək üçün elementi olan, beşguşəli 27 mm x 47,5 mm ölçüdə qırmızı çalarlı beşguşəli xara lentə halqa və ilgək vasitəsilə birləşdirilən, 35 mm qabarit ölçülü orden;

- paltara bərkidilmək üçün elementi olan, qırmızı çalarlı, üzərində alov simvolu təsvir edilmiş, ölçüsü 27 mm x 9 mm olan qəlib.

## "Azərbaycan Bayrağı" ordeni

### Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeninin statutu və təsviri təsdiq edilsin, (əlavə olunur).

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 dekabr 1993-cü il*
*№ 756*

### Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeninin Statutu

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 dekabr tarixli 756 saylı*
*Qanunu ilə təsdiq edilmişdir.*

1.Azərbaycan Respublikasının "Azərbaycan Bayrağı" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

- Azərbaycan Respublikasında milli azadlıq hərəkatında və ictimai-siyasi fəaliyyətdə xüsusi xidmətlərinə görə;
- hərb elminin və hərbi texnikanın inkişafında xüsusi xidmətlərinə görə;
- Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə görə;
- respublikada əmin-amanlığın təmin edilməsində, asayişin qorunmasında və hərbi xidmətdə xüsusi xidmətlərinə görə;
- dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə.

2."Azərbaycan Bayrağı" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Şah İsmayıl" ordenindən sonra taxılır.

## “Azərbaycan Bayrağı” ordeninin təsviri

*Azərbaycan Respublikasının 1998-ci il*
*6 fevral tarixli 429- IQD saylı Qanunu ilə*
*təsdiq edilmişdir.*

“Azərbaycan Bayrağı” ordeni iki, bir-birinin üzərinə qoyulmuş, biri digərinə nisbətən ox ətrafında dönmüş, qabarit ölçüsü 35 mm səkkizguşəli ulduzdan ibarətdir, qızıl suyuna çəkilmiş gümüşdəndir, milli ornamentlə işlənmişdir, altdakı ulduz ağ, üstdəki ulduz isə göy mina ilə örtülmüşdür.



Üstdəki ulduzun mərkəzində naxışla haşiyələnmiş sağanağın daxilində Azərbaycan Respublikasının Dövlət bayrağı təsvir olunmuş və öz rənglərinə uyğun mina ilə örtülmüşdür.

Arxa tərəfi hamar səthlidir, ortasında “Azərbaycan Bayrağı” sözləri yazılmışdır, ondan aşağıda ordenin nömrəsi həkk olunmuşdur.

Orden halqa və ilgək vasitəsilə paltara bərkidilmək üçün elementi olan, Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğun zolaqlarla haşiyələnmiş 27 mm x 47,5 mm ölçülü beşguşəli ağ xara lentə birləşdirilir.

Ordenə paltara bərkidilmək üçün elementi olan, üzərində alov simvolu təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Şərəf" ordeni

### "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 mart 2007-ci il*
*№ 2029*

## Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenləri **təsis edilsin.**

II. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 996; 1993-cü il, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 251; 2003-cü il, № 12, I kitab, maddə 677; 2005-ci il, № 4, maddə 291; 2006-cı il, № 10, maddə 846) 1-ci maddəsinin altıncı və yeddinci abzasları müvafiq olaraq yeddinci və doqquzuncu abzaslar hesab edilsin və maddəyə aşağıdakı məzmunda altıncı və səkkizinci abzaslar əlavə edilsin:

"Şərəf" ordeni;

"Dostluq" ordeni;".

III. Azərbaycan Respublikasının "Şərəf" ordeninin statutu təsdiq edilsin (əlavə olunur).

IV. Azərbaycan Respublikasının "Şərəf" ordeninin təsviri təsdiq edilsin (əlavə olunur).

V. Azərbaycan Respublikasının "Dostluq" ordeninin statutu təsdiq edilsin (əlavə olunur).

VI. Azərbaycan Respublikasının "Dostluq" ordeninin təsviri təsdiq edilsin (əlavə olunur).

VII. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 fevral 2007-ci il*
*№ 248-IIIQ*

## Azərbaycan Respublikasının "Şərəf" ordeninin Statutu

*Azərbaycan Respublikasının*
*2007-ci il 16 fevral tarixli 248-IIIQ nömrəli*
*Qanunu ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının "Şərəf" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

1.1 Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında böyük xidmətlərinə görə;

1.2. Azərbaycan Respublikasının milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə;

1.3. iqtisadi, elmi-texniki, sosial-mədəni inkişafda müstəsna xidmətlərinə görə;

1.4. elm, mədəniyyət, ədəbiyyat, incəsənət, təhsil və səhiyyə sahələrində böyük xidmətlərinə görə.

2. Azərbaycan Respublikasının "Şərəf" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda “Azərbaycan bayrağı” ordenindən sonra taxılır.

## Azərbaycan Respublikasının "Şərəf" ordeninin təsviri

*Azərbaycan Respublikasının*
*2007-ci il 16 fevral tarixli 248-IIIQ nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir*

1. "Şərəf" ordeni qızıldan və platindən hazırlanmış səkkizguşəli ulduz və onun üzərinə bərkidilmiş girdə lövhədən ibarətdir. Girdə lövhədə platindən düzəldilmiş xarici və qızıldan düzəldilmiş daxili dairə mövcuddur. Platindən hazırlanmış xarici dairənin yuxarı hissəsində çevrə boyunca qızıldan “Şərəf” sözü həkk olunmuşdur. Girdə lövhənin ortasında süni yaqut bərkidilmişdir. Orden halqa və ilgək vasitəsilə kənarları qoşa sarı xətli tünd qırmızı rəngdə lentə birləşdirilmişdir.



2. Arxa tərəfi hamar səthlidir, ortasında ordenin nömrəsi həkk olunmuşdur.

3. Təltif dəstinə aşağıdakılar daxildir:

3.1 boyundan asmaq üçün kənarları qoşa sarı xətli tünd qırmızı rəngdə 27 mm enində lentdən ibarət 50 mm qabarit ölçülü orden;

3.2. paltara bərkidilmək üçün 25 mm x 50 mm ölçüdə, kənarları qoşa sarı xətli tünd qırmızı rəngdə lentə halqa və ilgək vasitəsilə birləşdirilən 35 mm qabarit ölçülü orden;

3.3 paltara bərkidilmək üçün elementi olan, kənarları qoşa sarı xətli tünd qırmızı rəngdə, ölçüsü 1 mm x 15 mm olan qəlib.

## "Şöhrət" ordeni

## Azərbaycan Respublikasının "Şöhrət" ordeninin statutu və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır: Azərbaycan Respublikasının "Şöhrət" ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 dekabr 1993-cü il*
*№ 757*

## Azərbaycan Respublikasının "Şöhrət" ordeninin Statutu

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 dekabr tarixli 757 saylı Qanunu ilə*
*təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının «Şöhrət» ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

- iqtisadi, elmi-texniki, sosial-mədəni inkişafda xüsusi xidmətlərinə görə;
- sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və əməkdaşlığın inkişafında xüsusi xidmətlərinə görə;
- sənaye, nəqliyyat, rabitə, tikinti sahələrində və xalq təsərrüfatının digər sahələrində görkəmli əmək nəticələrinə görə;
- elm, təhsil və səhiyyə sahəsində xüsusi xidmətlərinə görə.

2. "Şöhrət" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Şərəf" ordenindən sonra taxılır.

## "Şöhrət" ordeninin təsviri

*Azərbaycan Respublikasının 1998-ci il
6 fevral tarixli 429- IQD saylı Qanunu ilə
təsdiq edilmişdir.*

"Şöhrət" ordeni aypara şəklində, milli ornamentlərlə haşiyələnmiş dəfnə çələngləri içərisində təsvir olunmuş, şüaları yuxarıya səpələnən günəş kompozisiyasından ibarətdir. Kompozisiya qızıl suyuna çəkilmiş gümüşdəndir, üzəri mavi mina ilə örtülmüşdür, qabarit ölçüləri 32 mm x 38 mm-dir.



Şüaları qövs şəklində kəsən və dəfnə budaqlarının yuxarı uclarını birləşdirən qızılı rəngli lentin üzərində "Şöhrət" sözü yazılmışdır.

Arxa tərəfi hamar səthlidir, ortasında ordenin nömrəsi həkk olunmuşdur.

Orden paltara bərkidilmək üçün elementi olan, 27 mm x 47,5 mm ölçüdə göy-ağ çalarlı beşguşəli xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir.

Ordenə paltara bərkidilmək üçün elementi olan, üzərində alov simvolu təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Dostluq" ordeni

### "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 mart 2007-ci il*
*№ 2029*

## Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenləri **təsis edilsin.**

II. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 996; 1993-cü il, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 251; 2003-cü il, № 12, I kitab, maddə 677; 2005-ci il, № 4, maddə 291; 2006-cı il, № 10, maddə 846) 1-ci maddəsinin altıncı və yeddinci abzasları müvafiq olaraq yeddinci və doqquzuncu abzaslar hesab edilsin və maddəyə aşağıdakı məzmunda altıncı və səkkizinci abzaslar əlavə edilsin:

"Şərəf" ordeni;

"Dostluq" ordeni;".

III. Azərbaycan Respublikasının "Şərəf" ordeninin statutu təsdiq edilsin (əlavə olunur).

IV. Azərbaycan Respublikasının "Şərəf" ordeninin təsviri təsdiq edilsin (əlavə olunur).

V. Azərbaycan Respublikasının "Dostluq" ordeninin statutu təsdiq edilsin (əlavə olunur).

VI. Azərbaycan Respublikasının "Dostluq" ordeninin təsviri təsdiq edilsin (əlavə olunur).

VII. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 fevral 2007-ci il*
*№ 248-IIIQ*

## Azərbaycan Respublikasının "Dostluq" ordeninin Statutu

*Azərbaycan Respublikasının*
*2007-ci il 16 fevral tarixli 248-IIIQ nömrəli*
*Qanunu ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının "Dostluq" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

1.1 Azərbaycan Respublikası ilə xarici ölkələr arasında dostluq, iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə;

1.2. xalqlar arasında dostluğun möhkəmləndirilməsi işində görkəmli xidmətlərinə görə;

1.3. dünyada, regionda və müxtəlif ölkələrdə sülhün və əmin-amanlığın bərqərar olmasında, sivilizasiyalar arasında konstruktiv münasibətlərin yaradılmasında və mədəniyyətlərarası dialoqun qurulmasında görkəmli xidmətlərinə görə.

2. "Dostluq" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Şöhrət" ordenindən sonra taxılır.

## Azərbaycan Respublikasının "Dostluq" ordeninin təsviri

*Azərbaycan Respublikasının*
*2007-ci il 16 fevral tarixli 248-IIIQ nömrəli*
*Qanunu ilə təsdiq edilmişdir*

1. "Dostluq" ordeni qızıldan düzəldilmiş itiuclu səkkizguşəli ulduz və onun üzərinə bərkidilmiş girdə lövhədən ibarətdir. Girdə lövhədə tutqun sarı rəngli qızıldan hazırlanmış relyefli quş qanadları arasında parlaq platindən düzəldilmiş yer kürəsi təsvir olunmuşdur. Girdə lövhənin kənarları qabarıqdır. Orden halqa və ilgək vasitəsilə Azərbaycan bayrağının rənglərini əks etdirən lentə birləşdirilmişdir.



2. Arxa tərəfi hamar səthlidir, ortasında ordenin nömrəsi həkk olunmuşdur.

3. Təltif dəstinə aşağıdakılar daxildir:

3.1. boyundan asmaq üçün Azərbaycan bayrağının rənglərini əks etdirən 23 mm enində lentdən ibarət 50 mm qabarit ölçülü orden;

3.2. paltara bərkidilmək üçün Azərbaycan bayrağının rənglərini əks etdirən 21 mm x 50 mm ölçüdə lentə halqa və ilgək vasitəsilə birləşdirilən 35 mm qabarit ölçülü orden;

3.3 paltara bərkidilmək üçün elementi olan, Azərbaycan bayrağının rənglərini əks etdirən, ölçüsü 1 mm x 15 mm olan qəlib.

## "Vətənə xidmətə görə" ordeni

## Azərbaycan Respublikasının "Vətənə xidmətə görə" ordeninin statutunun və təsvirinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "Vətənə xidmətə görə" ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 noyabr 2003-cü il*
*№ 514-IIQ*

## Azərbaycan Respublikasının "Vətənə xidmətə görə" ordeninin Statutu

*Azərbaycan Respublikasının*
*2003-cü il 7 noyabr tarixli 514-IIQ qanunu ilə*
*təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının üç dərəcədə "Vətənə xidmətə görə" ordeni aşağıdakılara görə verilir:

- Azərbaycan Respublikasına sadiqliyə görə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirməyə görə;
- dövlət qulluğunda səmərəli fəaliyyətə, yüksək peşəkarlığa və xüsusi nailiyyətlərə görə;
- milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərə görə.

2. "Vətənə xidmətə görə" ordeninin ən yüksək dərəcəsi birinci dərəcə sayılır.

"Vətənə xidmətə görə" ordeninin hər üç dərəcəsi ardıcıllıqla verilir.

3. "Vətənə xidmətə görə" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər ordenləri olduqda, onlardan sonra taxılır.

## "Vətənə xidmətə görə" ordeninin təsviri

*Azərbaycan Respublikasının 2003-cü il 7 noyabr tarixli*
*514-IIQ qanunu ilə təsdiq edilmişdir*

"Vətənə xidmətə görə" ordeni hər tərəfə şüalar saçan səkkizguşəli ulduz əsasında tərtib edilmiş kompozisiyadan ibarətdir.



Lövhənin çökək mərkəzində Azərbaycan Respublikasının Dövlət Gerbi təsvir edilmişdir. Orden üç səviyyədən ibarətdir, səkkizguşəli ulduzun yığılması iki kvadrat təşkil edir, onun mərkəzində Azərbaycan Respublikasının Dövlət Gerbi təsvir olunmuşdur. Gerbin üst hissəsində dairənin yarımçevrəsi boyunca "Vətənə xidmətə görə" sözləri yazılmışdır. Bütün yazılar və təsvirlər qabarıqdır.

"Vətənə xidmətə görə" ordeninin üç dərəcəsi vardır: Onun birinci dərəcəsi qızıldan, ikinci dərəcəsi gümüşdən, üçüncü dərəcəsi bürüncdəndir. Ordenin qabarit ölçüləri 35 mm x 35 mm-dir.

Ordenin arxa tərəfi hamar səthlidir, ortasında ordenin nömrəsi həkk olunmuşdur.

Orden paltara bərkidilmək üçün elementi olan 27 mm x 47,5 mm mm ölçüdə müvafiq olaraq qırmızı-qara, tünd göy-mavi və çəhrayı şabalıdı çalarlı beşbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir.

Ordenə paltara bərkidilmək üçün elementi olan, milli ornamentlə naxışlanan eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Əmək" ordeni

## Azərbaycan Respublikasının "Əmək" ordeninin təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447) 1-ci maddəsində "Vətənə xidmətə görə" ordeni" hissəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissədən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Əmək" ordeni.".

**Maddə 2.** "Azərbaycan Respublikasının "Əmək" ordeninin statutu" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Azərbaycan Respublikasının "Əmək" ordeninin təsviri" təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2016-cı il*
*№ 428-VQD*

## Azərbaycan Respublikasının "Əmək" ordeninin statutu

*Azərbaycan Respublikasının 2016-cı il*
*29 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

1.1. Azərbaycan Respublikasının "Əmək" ordeni ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istənilən fəaliyyət sahəsində Azərbaycan Respublikasının inkişafına və rifahının təmin olunmasına yönəlmiş müstəsna əmək nailiyyətlərinə görə, o cümlədən:

1.1.1. sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət, sənətkarlıq, xidmət və digər sahədə uzunmüddətli məhsuldar əməyə, elm, təhsil, səhiyyə, mədəniyyət, bədən tərbiyəsi, idman və digər sahələrdə fərqlənən əmək nailiyyətlərinə;

1.1.2. kənd təsərrüfatı məhsullarının istehsalında (emalında) kənd təsərrüfatının inkişafına təsir edən yüksək göstəricilərə;

1.1.3. istehsalatda əməyin məhsuldarlığına və məhsulun (əmtəənin) keyfiyyətinin yaxşılaşmasına, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artmasına təsir edən yüksək göstəricilərə;

1.1.4. yüksəkkeyfiyyətli məhsul istehsalına (hazırlanmasına, yetişdirilməsinə), yeni texnikanın, texnologiyanın, qabaqcıl təcrübənin, ixtiranın və səmərələşdirici təklifin istehsalatda davamlı, nəticəli tətbiqinə görə təltif edilirlər.

1.2. Azərbaycan Respublikasının "Əmək" ordeninin üç dərəcəsi vardır.

1.3. Azərbaycan Respublikasının 1-ci dərəcəli "Əmək" ordeni ən yüksək dərəcəlidir.

1.4. Azərbaycan Respublikasının "Əmək" ordeninin dərəcələri ardıcıllıqla verilir.

**Maddə 2. Təltif edən orqan**

Azərbaycan Respublikasının "Əmək" ordeni ilə bu statutun 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

Azərbaycan Respublikasının "Əmək" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Vətənə xidmətə görə" ordenindən sonra taxılır.

## Azərbaycan Respublikasının "Əmək" ordeninin təsviri

*Azərbaycan Respublikasının 2016-cı il*
*29 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Ordenin ümumi təsviri**

1.1. Azərbaycan Respublikasının "Əmək" ordeni (bundan sonra – orden) daxili diametrinin içərisində hər bir guşəsi alov simvolunu əks etdirən səkkizguşəli ulduz yerləşən bütöv ayparadan ibarətdir.

1.2. Ordenin 1-ci dərəcəsi qızıldan, 2-ci dərəcəsi gümüşdən, 3-cü dərəcəsi bürüncdəndir.

**Maddə 2. Ordenin ön tərəfi**

2.1. Ayparanın xarici diametri 38 mm, daxili diametri 30 mm-dir. Ayparanın aşağı hissəsinin mərkəzində dairə boyunca "ƏMƏK" sözü yazılmışdır. "ƏMƏK" sözü basma üsulu ilə ayparanın daxilində həkk olunmuşdur.

2.2. Hər bir guşəsi alov simvolunu əks etdirən səkkizguşəli ulduzun üzərində milli ornamentləri əks etdirən naxışlar həkk olunmuşdur. Səkkizguşəli ulduzun üzərində həkk olunmuş naxışlar relyeflidir. Səkkizguşəli ulduzun üz səthi qabarıqdır.

2.3. Ordenin qalınlığı 4 mm-dir.

**Maddə 3. Ordenin arxa tərəfi**

Ordenin arxa tərəfi hamar səthlidir, səkkizguşəli ulduzun mərkəzində ordenin seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Ordenin elementləri**

4.1. Orden paltarın yaxasına bərkidilmək üçün elementi olan, üst və alt hissəsi 30 mm x 3,5 mm ölçüdə metal lövhədən, orta hissəsi 25 mm x 45 mm ölçüdə xara lentdən ibarət düzbucaqlı lövhəyə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lent Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğun mavi, qırmızı və yaşıl rəngli bərabər şaquli zolağa bölünmüşdür.

4.2. Ordenə paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 25 mm x 9 mm ölçüdə qəlib əlavə edilir. Qəlibin üzərinə hər bir guşəsi alov simvolunu əks etdirən səkkizguşəli ulduz şəklində kiçik metal lövhə bərkidilir.



## "Rəşadət" ordeni

## Azərbaycan Respublikasının "Rəşadət" ordeninin statutu

*Azərbaycan Respublikasının*
*2017-ci il 17 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

1.1. Azərbaycan Respublikasının "Rəşadət" ordeni ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları aşağıdakı xidmətlərinə görə təltif edilirlər:

1.1.1. Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsində xüsusi xidmətlərinə görə;

1.1.2. əhəmiyyətli və ya strateji ərazinin, yaşayış məntəqəsinin, rayonun və ya şəhərin düşmən işğalından azad olunması ilə nəticələnmiş döyüş əməliyyatları zamanı hərbi hissə və birləşmələrə yüksək peşəkarlıqla rəhbərlik etdiklərinə görə;

1.1.3. Vətənin müdafiəsi zamanı düşmən hücumunun qarşısının alınmasında, işğal edilmiş ərazilərin azad olunmasında, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində igidlik və mərdlik nümunəsi göstərdiklərinə görə;

1.1.4. həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu və hərbi qulluq vəzifəsini yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə;

1.1.5. fövqəladə hallarda və ya ekstremal şəraitdə insanların xilas edilməsində xüsusi xidmətlərinə görə;

1.1.6. dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə.

1.2. Azərbaycan Respublikasının "Rəşadət" ordeninin üç dərəcəsi vardır.

1.3. Azərbaycan Respublikasının 1-ci dərəcəli "Rəşadət" ordeni ən yüksək dərəcəlidir.

1.4. Azərbaycan Respublikasının "Rəşadət" ordeninin dərəcələri ardıcıllıqla verilir.

**Maddə 2. Taxılma qaydası**

Azərbaycan Respublikasının "Rəşadət" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər ordenləri olduqda "Azərbaycan bayrağı" ordenindən sonra taxılır.

## Azərbaycan Respublikasının "Rəşadət" ordeninin təsviri

*Azərbaycan Respublikasının*
*2017-ci il 17 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Ordenin ümumi təsviri**

1.1. Azərbaycan Respublikasının "Rəşadət" ordeni (bundan sonra - orden) hər bir guşəsi qabarıq ikipilləli formalı, diametri 40 mm olan səkkizguşəli ulduz şəklində lövhədən ibarətdir. Ulduzun ikipilləli guşələrinin arasında ucları kürəcikli relyefli elementlər yerləşdirilmişdir.

1.2. Ordenin 1-ci dərəcəsi qızıldan, 2-ci dərəcəsi gümüşdən, 3-cü dərəcəsi bürüncdəndir.

**Maddə 2. Ordenin ön tərəfi**

Səkkizguşəli ulduzun ön tərəfində iki dairə ilə əhatə olunmuş lövhə yerləşdirilmişdir. Birinci dairə ilə ikinci dairənin arasında ağ minalı fonda yuxarı hissədə qövs boyunca "RƏŞADƏT" sözü, aşağı hissədə qövs boyunca palıd yarpaqlarından ibarət çələng təsvir olunmuşdur. "RƏŞADƏT" sözünün hər iki tərəfində kompozisiyanı tamamlayan xətt vardır. İkinci dairənin daxilində tünd göy minalı fonda kəsişən iki qılıncın arasında kiçik səkkizguşəli ulduz yerləşdirilmişdir. "RƏŞADƏT" sözü, palıd yarpaqlarından ibarət çələng və səkkizguşəli ulduz relyeflidir.

**Maddə 3. Ordenin arxa tərəfi**

Ordenin arxa tərəfinin səthi hamardır, aşağı hissəsində ordenin seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Ordenin elementləri**

4.1. Orden paltara bərkidilmək üçün elementi olan, 37 mm x 28 mm ölçülü, yuxarı hissəsi düzbucaqlı, aşağı hissəsi qövs formalı xara lentə ilgək və 2 halqa vasitəsilə birləşdirilir. Xara lentin mərkəzində ordenin 1-ci dərəcəsi üçün eni 5 mm olan bir qızılı zolaq; ordenin 2-ci dərəcəsi üçün hər birinin eni 2,5 mm olan iki qızılı zolaq və onların arasında eni 1 mm olan tünd göy rəngli bir zolaq; ordenin 3-cü dərəcəsi üçün hər birinin eni 1,5 mm olan üç qızılı zolaq və onların arasında hər birinin eni 1 mm olan tünd göy rəngli iki zolaq təsvir edilmişdir. Qızılı zolaqların kənarlarında – sağ və sol tərəflərində ordenin 1-ci dərəcəsi üçün eni 8,5 mm, 2-ci dərəcəsi üçün eni 8 mm, 3-cü dərəcəsi üçün eni 7,75 mm olan tünd göy rəngli zolaq, həmin zolağın yanında isə Azərbaycan Respublikası Dövlət bayrağının rənglərini əks etdirən və hər birinin eni 1,5 mm olan mavi, qırmızı və yaşıl rəngli üç zolaq və ardıcıl olaraq tünd göy, qızılı və tünd göy rəngli (hər birinin eni 1mm) daha üç zolaq vardır. Lentin üzərindəki zolaqların hamısı şaqulidir. Lentin alt hissəsinə üzərində dəfnə yarpaqlarından ibarət çələng əks olunmuş, ordenin dərəcəsinə uyğun metaldan hazırlanmış relyefli qövsvari lövhə bərkidilmişdir. Lövhənin mərkəzində eni 3 mm olan şaquli zolaq vardır.




4.2. Ordenə paltara bərkidilmək üçün elementi olan, ordenin dərəcəsinə uyğun xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

## “Zəfər” ordeni

## Azərbaycan Respublikasının “Zəfər” ordeninin statutu

*Azərbaycan Respublikasının 2020-ci il*
*26 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

Azərbaycan Respublikasının “Zəfər” ordeni ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi zamanı əhəmiyyətli və ya strateji ərazinin, yaşayış məntəqəsinin, rayonun və ya şəhərin düşmən işğalından azad olunması ilə nəticələnmiş döyüş əməliyyatlarına, Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa edilməsi üzrə döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissə komandirləri və onlardan yuxarı rəhbər heyəti, habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə digər şəxslər təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

Azərbaycan Respublikasının “Zəfər” ordeni ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

Azərbaycan Respublikasının “Zəfər” ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər ordenləri və medalları olduqda “Heydər Əliyev” ordenindən sonra taxılır.

## Azərbaycan Respublikasının “Zəfər” ordeninin təsviri

*Azərbaycan Respublikasının 2020-ci il*
*26 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*




**Maddə 1. Ordenin ümumi təsviri**

Azərbaycan Respublikasının “Zəfər” ordeni (bundan sonra – orden) 900 əyarlı qızıldan hazırlanmış, sol və sağ tərəflərinə iki əyri qılınc, uclarına kiçik kürəciklər bərkidilmiş ayparadan, guşələri pilləvarı olan səkkizguşəli altlıqdan və aypara ilə altlığın üzərinə yerləşdirilmiş, uclarına kiçik kürəciklər bərkidilmiş ikitərəfli hamar şüalı səkkizguşəli ulduz formalı, diametri 42 mm olan lövhədən ibarətdir.

**Maddə 2. Ordenin ön tərəfi**

2.1. Ordenin ön tərəfində aypara ağ qızıldan, səkkizguşəli ulduz, qılınclar və altlığın guşələrinin mərkəzi elementləri sarı qızıldan hazırlanmışdır.

2.2. Səkkizguşəli ulduzun qalan elementləri tünd rəngdədir. Səkkizguşəli ulduzun üzərində zolaq ilə konturlanmış tünd rəngli dairəvi lövhə və onun mərkəzində yumruq formasında sıxılmış əl təsvir olunmuşdur. Zolağın üzərində səkkiz ədəd maili xətlər vardır.

2.3. Yumruq və kürəciklər relyefli olaraq qabarıqdır.

**Maddə 3. Ordenin arxa tərəfi**

3.1. Ordenin arxa tərəfi hamar səthlidir, mərkəzdən yuxarıda "ZƏFƏR" sözü, mərkəzdə "VƏTƏN MÜHARİBƏSİ 2020" sözləri və rəqəmləri qabarıq şəkildə yazılmışdır.

3.2. Ordenin arxa tərəfinin mərkəzdən aşağı hissəsində ordenin seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Ordenin elementləri**

4.1. Orden paltara bərkidilmək üçün elementi olan 37 mm x 50 mm ölçülü xara lentə 2 halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərinə uyğun rəngli zolaqlar təsvir olunmuşdur. Lentin mərkəzində 10 mm enində qırmızı rəngli şaquli zolaq, qırmızı zolaqdan sol və sağ tərəflərdə 13,5 mm enində yaşıl və mavi rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Yaşıl və mavi zolaqların üzərində qırmızı zolaqdan 1,5 mm aralı və bir-birinin arası 1,5 mm olan 1 mm enində üç qırmızı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.4. Xara lentin yuxarı hissəsinə 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.5. Lentin aşağı hissəsinə 40 mm x 12 mm ölçülü, yuxarı hissəsi düzbucaq, aşağı hissəsi üçbucaq formalı lövhə bərkidilmişdir.

4.6. Üçbucağın alt konturu iki relyefli qılınc formasında təsvir olunmuşdur. Üçbucağın mərkəzində relyefli aypara və ulduz vardır.

4.7. Ordenin dəstinə bir ədəd sinəyə taxılma və bir ədəd diametri 60 mm olan boyundan asılma orden daxildir.

4.8. Ordenə paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş iki ədəd 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

## "Qarabağ" ordeni

## Azərbaycan Respublikasının "Qarabağ" ordeninin statutu

*Azərbaycan Respublikasının 2020-ci il*
*26 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

Azərbaycan Respublikasının "Qarabağ" ordeni ilə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinin azad olunmasında, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində igidlik və mərdlik nümunəsi göstərmiş, hərbi əməliyyatlar zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu və hərbi qulluq vəzifəsini yerinə yetirərkən mərdlik və qətiyyət nümayiş etdirmiş, Azərbaycan Respublikasının dövlət sərhədinin bərpa və mühafizə edilməsində xüsusi xidmət göstərmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları, habelə ərazi bütövlüyünün təmin edilməsi sahəsində xüsusi xidmətlərinə görə digər şəxslər təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

Azərbaycan Respublikasının "Qarabağ" ordeni ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

Azərbaycan Respublikasının "Qarabağ" ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər ordenləri və medalları olduqda, "Zəfər" ordenindən sonra taxılır.

## Azərbaycan Respublikasının "Qarabağ" ordeninin təsviri

*Azərbaycan Respublikasının 2020-ci il*
*26 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Ordenin ümumi təsviri**




Azərbaycan Respublikasının "Qarabağ" ordeni (bundan sonra – orden) 900 əyarlı qızıldan hazırlanmış, yuxarı hissəsi hər iki ucu bükülmüş lent formalı, qalan hissəsi üç təbəqəli konturlanmış 41 mm x 37 mm ölçülü oval formalı lövhədən ibarətdir.

**Maddə 2. Ordenin ön tərəfi**

2.1. Ordenin ön tərəfində lentin mərkəzində "QARABAĞ" sözü yazılmışdır. Lövhənin daxili konturunun içərisində tünd yaşıl minalı fonda dəbilqə, iki kəsişən qılınc, aypara və ulduzdan ibarət kompozisiya təsvir olunmuşdur.

2.2. Lövhənin aşağı hissəsindən yuxarıya doğru sol və sağ tərəflərdə palıd çələngləri təsvir olunmuşdur.

2.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Ordenin arxa tərəfi**

Ordenin arxa tərəfi hamar səthlidir, mərkəzində ordenin seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Ordenin elementləri**

4.1. Orden paltara bərkidilmək üçün elementi olan 52 mm x 15 mm ölçülü tünd yaşıl minalı bükülmüş lent formalı lövhəyə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Lövhənin üzərində üfüqi vəziyyətdə nizələr həkk olunmuşdur. Lentin mərkəzində dairəvi lövhə yerləşdirilmişdir. Dairəvi lövhənin mərkəzindən yuxarı hissəsində üzəri xətlərlə işlənmiş ikitərəfli şüalı səkkizguşəli ulduz həkk olunmuşdur.

4.3. Dairəvi lövhənin aşağı hissəsindən yuxarıya doğru sol və sağ tərəflərdə səkkizguşəli ulduzu əhatə edən dəfnə çələngləri təsvir olunmuşdur.

4.4. Ordenə paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 52 mm x 10 mm ölçüdə qəlib əlavə edilir.

# Medallar

## "Qızıl Ulduz" medalı

### Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanı—“Ay-Ulduz” medalı təsis edilsin.

2. “Ay-Ulduz” medalının şəkli və təsviri təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 iyul 1992-ci il*
*№ 201*

## "Azərbaycanın Milli Qəhrəmanı" adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Azərbaycanın Milli Qəhrəmanı" adı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 15 iyul 1992-ci il*
*№ 209*

## "Azərbaycanın Milli Qəhrəmanı" adı haqqında Əsasnamə

1. "Azərbaycanın Milli Qəhrəmanı" adı respublikanın ən yüksək fərqlənmə dərəcəsidir, Azərbaycan Respublikasının müstəqilliyi və tərəqqisi naminə xalq qarşısında müstəsna xidmətlərə və rəşadətə görə verilir.

2. "Azərbaycanın Milli Qəhrəmanı" adı Azərbaycan Respublikasının Prezidenti tərəfindən onun öz təşəbbüsü ilə və ya irəli sürülmüş vəsatətlərə əsasən verilir.

3. Azərbaycanın Milli Qəhrəmanına aşağıdakılar təqdim edilir:
 - xüsusi fərqlənmə nişanı — səkkizguşəli "Qızıl Ulduz" medalı;
 - "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi haqqında Fərman.

4. "Azərbaycanın Milli Qəhrəmanı" adı eyni şəxsə bir dəfə verilir.

5. Azərbaycanın Milli Qəhrəmanı qanunvericiliklə müəyyənləşdirilmiş güzəştlərdən istifadə edir.

6. "Qızıl Ulduz" medalı döşün sol tərəfinə, digər orden və medallardan yuxarıda taxılır.

7. "Azərbaycanın Milli Qəhrəmanı" adı almış şəxslər həmin addan yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhrum edilə bilərlər.

## Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

*Azərbaycan Respublikasının 1998-ci il*
*6 fevral tarixli 429- IQD saylı*
*Qanunu ilə təsdiq edilmişdir.*

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. "Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992-ci il, N 13, maddə 492) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci və 2-ci bəndlərdə "Ay-Ulduz" sözləri "Qızıl Ulduz" sözləri ilə əvəz edilsin.

2. Həmin Qanuna əlavə olunmuş "Ay-Ulduz" medalının təsviri" aşağıdakı redaksiyada verilsin:

II. "Azərbaycanın Milli Qəhrəmanı" adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu ilə (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992-ci il, N 13, maddə 500) təsdiq edilmiş "Azərbaycanın Milli Qəhrəmanı" adı haqqında Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü bəndin ikinci abzası aşağıdakı redaksiyada verilsin: "xüsusi fərqlənmə nişanı - səkkizguşəli "Qızıl Ulduz" medalı;"

2. 6-cı bənddə "Ay-Ulduz" sözləri "Qızıl Ulduz" sözləri ilə əvəz edilsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 fevral 1998-ci il*
*№ 429-IQD*

## "Qızıl Ulduz" medalının təsviri

*Azərbaycan Respublikasının 1998-ci il*
*6 fevral tarixli 429- IQD saylı*
*Qanunu ilə təsdiq edilmişdir.*



"Qızıl Ulduz" medalı üz tərəfində ikiüzlü hamar şüalar olan, 31,5 mm qabarit ölçülü səkkizguşəli ulduzdan ibarətdir, sarı qızıldan hazırlanmışdır.

Arxa tərəfi hamar səthlidir, ortasında "Azərbaycanın Milli Qəhrəmanı" sözləri yazılmışdır. Yuxarı şüanın küncündə medalın nömrəsi həkk olunmuşdur.

Medal ilgək və halqa vasitəsi ilə ölçüsü 27 mm x 20 mm olan Azərbaycan Respublikası Dövlət bayrağının rənglərinə uyğun üçrəngli beşkünc xara lentə birləşdirilmişdir. Lentin yuxarı kənarında qızıl suyuna çəkilmiş ensiz metal lövhə və paltara bərkidilmək üçün element vardır.

Medala üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı təsvir edilmiş, paltara bərkidilmək üçün elementi olan 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur".

## "Vətən uğrunda" medalı
## Azərbaycan Respublikasının "Vətən uğrunda" medalı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının "**Vətən uğrunda**" medalı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 dekabr 1998-ci il*
*№ 608-IQ*

## "Vətən Uğrunda" medalı haqqındaƏsasnamə

*Azərbaycan Respublikasının*
*1998-ci il 29 dekabr tarixli 608-IQ saylı*
*Qanunu ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının "Vətən uğrunda" medalı aşağıdakılara görə verilir:

- Azərbaycan Respublikası ərazi bütövlüyünün təmin edilməsində iştirak etdiklərinə görə;
- Dövlətin milli təhlükəsizliyinin təmin edilməsində fəaliyyətinə görə;
- Dövlət quruluşunun müdafiəsində iştirakına görə.

2. "Vətən uğrunda" Azərbaycan Respublikasının medalı digər orden və medalları olduğu halda döşün sol tərəfinə ordenlərdən sonra taxılır.

## Azərbaycan Respublikasının «Vətən uğrunda» medalının təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının «Vətən uğrunda» medalının təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 dekabr 2000-ci il*
*№ 34-IIQ.*

### «Vətən Uğrunda» medalının təsviri

*Azərbaycan Respublikasının*
*2000-ci il 8 dekabr tarixli 34 saylı Qanunu ilə*
*təsdiq edilmişdir*




«Vətən uğrunda» medalı bürüncdən tökülmüş, çevrəsi boyunca bəzəyi olan 36 mm diametrli girdə lövhədən ibarətdir.

Medalın mərkəzində Azərbaycan Respublikasının Gerbi yerləşdirilib, onun altında isə iki kəsişən qılınc göstərilib. Gerbin üstündə çevrə boyunca «Vətən uğrunda» sözləri yazılmışdır. Yazı və təsvirlər qabarıqdır.

Arxa tərəfi hamar səthlidir, ortasında medalın nömrəsi həkk olunmuşdur.

Medal halqa və ilgəyin vasitəsi ilə 27 mm x 43 mm tünd və açıq palıdı tonda xara lentlə bükülmüş nazik düzbucaqlı lövhəyə birləşdirilir. Lövhənin aşağı hissəsində milli ornament üslubunda təsvir olunmuş halqalı düzbucaqlı çıxıntı, arxa tərəfində isə paltara bərkidilmək üçün müvafiq bərkidici element vardır.

Medala paltara bərkidilmək üçün elementi olan, üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən hazırlanmış 27mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "İgidliyə görə" medal

## Azərbaycan Respublikasının "İgidliyə görə" medalı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "**İgidliyə görə**" medalı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 dekabr 1998-ci il*
*№ 607-IQ*

### "İgidliyə görə" medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının*
*1998-ci il 29 dekabr tarixli 607-IQ saylı*
*Qanunu ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının "İgidliyə görə" medalı aşağıdakılara görə verilir:
 - müharibədə döyüş zamanı göstərdiyi igidliyə görə;
 - döyüş əməliyyatlarına uğurlu rəhbərlik etdiyinə və şəxsi mərdlik göstərdiyinə görə;
 - həyatı təhlükə altında hərbi borcu yerinə yetirərkən igidlik göstərdiyinə görə;
 - xüsusi tapşırığı yerinə yetirərkən cəsarət göstərdiyinə görə;
 - həyatı təhlükə qorxusu altında olduğu halda insan həyatı xilas etdiyinə görə.
2. "İgidliyə görə" Azərbaycan Respublikasının medalı digər orden və medalları olduğu halda döşün sol tərəfinə "Vətən uğrunda" medalından sonra taxılır.

## Azərbaycan Respublikasının «İgidliyə görə» medalının təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının «İgidliyə görə» medalının təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 dekabr 2000-ci il*
*№ 35-IIQ*

## «İgidliyə görə» medalının təsviri

*Azərbaycan Respublikasının*
*2000-ci il 8 dekabr tarixli 35-IIQ saylı*
*Qanunu ilə təsdiq edilmişdir*

«İgidliyə görə» medalı bürüncdən tökülmüş, 36 mm diametrli girdə lövhədən ibarətdir.




Medalın üstündə səkkizguşəli ulduzun fonunda başında dəbilqə və əlində süngülü tüfəng olan əsgərin yandan görünüşü təsvir edilmişdir. Əsgər təsvirinin solunda, çevrə boyunca «İgidliyə görə» sözləri həkk olunmuşdur. Yazı və təsvirlər qabarıqdır.

Arxa tərəfi hamar səthlidir, ortasında medalın nömrəsi həkk olunmuşdur.

Medal halqa və ilgəyin vasitəsi ilə 27 mm x 43 mm tünd və açıq yaşıl fonda xara lentlə bükülmüş nazik düzbucaqlı lövhəyə birləşdirilir. Lövhənin aşağı hissəsində milli ornament üslubunda təsvir olunmuş halqalı düzbucaqlı çıxıntı, arxa tərəfində isə paltara bərkidilmək üçün müvafiq bərkidici element vardır.

Medala paltara bərkidilmək üçün elementi olan, üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Tərəqqi" medalı

## Azərbaycan Respublikasının "Tərəqqi" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "Tərəqqi" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 dekabr 1993-cü il*
*№ 758*

## Azərbaycan Respublikasının "Tərəqqi" medalının Əsasnaməsi

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 dekabr tarixli 758 saylı*
*Qanunu ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının "Tərəqqi" medalı Azərbaycan Respublikasının vətəndaşlarına), əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

- sənaye və kənd təsərrüfatı sahəsində qazandıqları uğurlara görə;
- böyük əhəmiyyətli ixtiralara və səmərələşdirici təkliflərin verilməsinə görə;
- elm, mədəniyyət, ədəbiyyat, incəsənət, xalq təhsili və səhiyyə sahələrində xidmətlərinə görə;
- xalq təsərrüfatı obyektlərinin inşasında, yenidən qurulmasında görkəmli xidmətlərinə görə;
- bədən tərbiyəsi və idmanın inkişafında səmərəli fəaliyyətinə görə.

2. "Tərəqqi" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "İgidliyə görə" medalından sonra taxılır.

## "Tərəqqi" medalının təsviri

*Azərbaycan Respublikasının 1998-ci il*
*6 fevral tarixli 429- IQD saylı*
*Qanunu ilə təsdiq edilmişdir.*

"Tərəqqi" medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş 35 mm diametrli girdə lövhədir, kənarları hərəkət simvollu haşiyələrdən ibarətdir.



Medalın mərkəzində çiçəklənmə rəmzi təsvir olunmuşdur və onun üzərində çevrə boyunca "Tərəqqi" sözü yazılmışdır. Gül təsviri və yazı qabarıqdır.

Arxa tərəfi hamar səthlidir, ortasında medalın nömrəsi həkk olunmuşdur.

Medal paltara bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə yaşıl çalarlı beşguşəli xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir.

Medala paltara bərkidilmək üçün elementi olan, üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Hərbi xidmətlərə görə" medal

## Azərbaycan Respublikasının "Hərbi xidmətlərə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "Hərbi xidmətlərə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 dekabr 1993-cü il*

*№ 759*

## "Hərbi xidmətlərə görə" medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 dekabr tarixli 759 saylı Qanunu ilə*
*təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının "Hərbi xidmətlərə görə" medalı Azərbaycan Respublikasının hərbi qulluqçularına aşağıdakılara görə verilir:

- öz xidmət vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə;

- dövlət sərhədlərinin qorunmasında xidmətlərinə görə.

2. "Hərbi xidmətlərə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Tərəqqi" medalından sonra taxılır.

## "Hərbi xidmətlərə görə" medalının təsviri

*Azərbaycan Respublikasının 1998-ci il*
*6 fevral tarixli 429- IQD saylı*
*Qanunu ilə təsdiq edilmişdir.*

"Hərbi xidmətlərə görə" medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş, dairəvi ornamentli və mərkəzdən paylanan şüaları olan diametri 35 mm qalxanabənzər girdə lövhədən ibarətdir.



Qalxanın ortasında səkkizguşəli ulduz və ulduzun arxasında iki çarpaz qılınc təsvir olunmuşdur.

Arxa tərəfi hamar səthlidir, ortasında "Hərbi xidmətlərə görə" sözləri yazılmışdır, ondan aşağıda medalın nömrəsi həkk olunmuşdur.

Medal paltara bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə qəhvəyi çalarlı düzbucaqlı xara lentə halda və ilgək vasitəsilə birləşdirilir.

Medala paltara bərkidilmək üçün elementi olan, üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Hərbi xidmətdə fərqlənməyə görə" medal

## Azərbaycan Respublikasının "Hərbi xidmətdə fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Hərbi xidmətdə fərqlənməyə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 may 2002-ci il*
*№ 327-IIQ*

### "Hərbi xidmətdə fərqlənməyə görə" medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli, 327-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir*

1. "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları aşağıdakılara görə təltif edilirlər:

- döyüş hazırlığındakı əla göstəricilərə görə;
- təlimlərdə, döyüş xidməti və döyüş növbəsində xüsusi fərqlənməyə görə;
- şücaət, fədakarlıq və hərbi xidmət keçdiyi dövrdə göstərdiyi digər xidmətlərə görə.

2. "Hərbi xidmətdə fərqlənməyə görə" medalının üç dərəcəsi vardır:

- "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci dərəcəli medal;
- "Hərbi xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli medal;
- "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal.

1-ci dərəcəli medal ən ali dərəcədir.

3. "Hərbi xidmətdə fərqlənməyə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Hərbi xidmətlərə görə" medalından sonra taxılır.

## "Hərbi xidmətdə fərqlənməyə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medalın təsviri

*Azərbaycan Respublikasının 2002-ci il 17 may*
*tarixli, 327-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir*

"Hərbi xidmətdə fərqlənməyə görə" medalı üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz yerləşdirilmiş ensiz lövhə ilə birgə bürüncdən tökülmüş, dairəvi formalı və diametri 35 mm girdə lövhədən ibarətdir.

Medalın ön tərəfində üst səthi hamar və guşələri qabarıq olan səkkizguşəli ulduzun fonunda açılmış qartal qanadları, çarpazlaşdırılmış tüfənglər və lövbər təsvir edilmişdir. Ulduzun üst səthində, guşələrinin konturları ilə çevrənin konturları arasında relyefli şüalar vardır.



İki tərəfdən konturlanmış çevrə boyunca yuxarıda "Hərbi xidmətdə fərqlənməyə görə" sözləri həkk olunmuş, aşağıda isə palıd yarpaqlarından çələnglər yerləşdirilmişdir.

Medalın 3-cü dərəcəsi gümüşü rəngli, 2-ci dərəcəsi çevrə və onun üzərindəki sözlər istisna olmaqla - qızılı rəngli, 1-ci dərəcəsi - qızılı rəngli, qartal qanadları gümüşü, lövbər isə qara rəngdədir.

Arxa tərəfi hamar səthidir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı zeytun rəngli xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Bütün dərəcəli medallar üçün xara lentin kənarlarında 1 mm enində qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur. Lentin ortasında medalın 1-ci dərəcəsi üçün eni 5 mm olan qızılı rəngli bir şaquli zolaq, 2-ci və 3-cü dərəcəsi üçün eni 2 mm olan müvafiq olaraq iki və üç zolaq vardır.

Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Sərhəddə fərqlənməyə görə" medal

## Azərbaycan Respublikasının "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

Azərbaycan Respublikasının "Sərhəddə fərqlənməyə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 dekabr 1993-cü il*
*№ 760*

### "Sərhəddə fərqlənməyə görə" medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 1993-cü il*
*6 dekabr tarixli 760 saylı Qanunu ilə*
*təsdiq edilmişdir*

1. "Sərhəddə fərqlənməyə görə" medalı ilə Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsində Azərbaycan Respublikası sərhəd qoşunlarının xüsusi fərqlənən hərbi qulluqçuları və digər şəxslər təltif edilirlər.



2. Hərbi qulluqçular və digər şəxslər "Sərhəddə fərqlənməyə görə" medalı ilə Azərbaycan Respublikasının Prezidenti adından müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

3. "Sərhəddə fərqlənməyə görə" medalı aşağıdakılara görə verilir:

Azərbaycan Respublikasının dövlət sərhədini pozanların tutulub saxlanması ilə əlaqədar döyüş əməliyyatlarında göstərilən rəşadətə görə;

Azərbaycan Respublikasının dövlət sərhədinin toxunulmazlığını qoruyarkən sərhəd qarovulunun döyüş əməliyyatlarına bacarıqla rəhbərliyə görə;

dövlət sərhədinin mühafizəsində göstərilən yüksək sayıqlığa və təşəbbüskarlığa görə;

sərhəd mühafizə xidmətində yüksək təşkilatçılıq bacarığı və dövlət sərhədinin möhkəmləndirilməsində nümunəvi işə görə;

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsində-qüsursuz xidmətə görə;

dövlət sərhədinin mühafizəsində sərhəd qoşunlarına fəal köməyə görə.

4. Sərhəddə fərqlənməyə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, "Hərbi xidmətdə fərqlənməyə görə" medalından sonra taxılır.

## "Sərhəddə fərqlənməyə görə" medalının təsviri

*Azərbaycan Respublikasının 1998-ci il*
*6 fevral tarixli 429- IQD saylı Qanunu ilə*
*təsdiq edilmişdir.*

"Sərhəddə fərqlənməyə görə" medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş 35 mm diametrli girdə lövhədən ibarətdir.

Medalın mərkəzində qala divarı fonunda qılınc təsvir olunmuşdur.

Qala divarı ilə qılıncdan yuxarıda, çevrə boyunca "Sərhəddə fərqlənməyə görə" sözləri yazılmışdır. Yazı və təsvirlər qabarıqdır.

Arxa tərəfi hamar səthlidir, ortasında medalın nömrəsi həkk olunmuşdur.

Medal paltara bərkidilmək üçün elementi olan, 27 mm x 43 m ölçüdə mixəyi çalarlı düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir.

Medala paltara bərkidilmək üçün elementi olan, üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medal

## Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

I. Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 may 2002-ci il*

*№ 328-IIQ*

## "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2002-ci il*
*17 may tarixli, 328-IIQ nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir*

1. "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə Azərbaycan Respublikası ilə hərbi əməkdaşlığın möhkəmləndirilməsində göstərdikləri xidmətlərə görə Azərbaycan Respublikasının və xarici ölkələrin hərbi qulluqçuları və digər şəxslər təltif edilirlər.

2. "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Sərhəddə fərqlənməyə görə" medalından sonra taxılır.

## "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalının Təsviri

*Azərbaycan Respublikasının 2002-ci il*
*17 may tarixli, 328-IIQ nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir*




"Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş qızılı rəngli, dairəvi formalı, diametri 35 mm olan lövhədən ibarətdir.

Medalın ön tərəfində üzərində səkkizguşəli ulduz yerləşdirilmiş qalxan təsvir edilmişdir.

Qalxandan yuxarıda çevrə boyunca "Azərbaycan Respublikası", ulduzun ortasında "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə"

sözləri yazılmış, qalxandan aşağıda iki çarpazlaşdırılmış qılınc, qalxanın sol tərəfində dəfnə yarpağından, sağ tərəfində isə palıd yarpağından çələnglər yerləşdirilmişdir. Çevrənin daxili və ulduzun xarici konturlarının arasında relyefli şüalar vardır.

Ulduz ağ, qılınclar gümüşü rəngdə, qalan təsvirlər isə qızılı rəngdədir.

Arxa tərəfi hamar səthlidir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə yaşıl rəngli fonda, kənarlarından mərkəzə doğru ardıcıl olaraq 1 mm enində qızılı rəngli, 3 mm enində göy və qırmızı rəngli şaquli zolaqlar təsvir edilmişdir.

Medala paltara bərkidilmək üçün elementi olan, üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı

## Azərbaycan Respublikasının "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 may 2002-ci il*

*№ 329-IIQ*

## "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli, 329-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir*




1. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrin sıralarında (SSRİ Silahlı Qüvvələri və digər silahlı birləşmələrində xidmət müddəti də nəzərə alınmaqla) 25 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçular təltif edilirlər.

2. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalından sonra taxılır.

## "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalının təsviri

*Azərbaycan Respublikasının 2002-ci il*
*17 may tarixli, 329-IIQ nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir*

"Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və gümüş suyuna çəkilmiş, dairəvi formalı, diametri 35 mm olan lövhədən ibarətdir.

Medalın ortasında Silahlı Qüvvələrin relyefli emblemi təsvir olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca "Azərbaycan Respublikası", aşağıda isə lent üzərində "Silahlı Qüvvələri Veteranı" sözləri həkk olunmuşdur. Aypara, ulduz və lent ağ rəngdədir.

Arxa tərəfi hamar səthlidir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə zeytun rəngli fonda, kənarlarından mərkəzə doğru ardıcıl olaraq Silahlı Qüvvələrin növlərinin rəngləri - 1 mm enində zeytun və ağ rəngli, 3 mm enində göy və ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir.

Medala paltara bərkidilmək üçün elementi olan eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Qüsursuz xidmətə görə" medal

## Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 may 2002-ci il*
*№ 330-IIQ*

## "Qüsursuz xidmətə görə" medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2002-ci il*
*17 may tarixli, 330-IIQ nömrəli*
*Qanunu ilə təsdiq edilmişdir*
*(2 oktyabr 2008-ci il tarixli dəyişikliklə)*

1. "Qüsursuz xidmətə görə" medalı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrində qüsursuz həqiqi hərbi xidmət keçən, hər il iyun ayının 26-na qədər 10, 15 və 20 təqvim ili tamam olmuş hərbi qulluqçular təltif edilirlər.

2. "Qüsursuz xidmətə görə" medalının üç dərəcəsi vardır:

"Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medal - Silahlı Qüvvələrdə 20 təqvim ili xidmətə görə;

"Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medal - Silahlı Qüvvələrdə 15 təqvim ili xidmətə görə;

"Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medal - Silahlı Qüvvələrdə 10 təqvim ili xidmətə görə.

1-ci dərəcəli medal ən ali dərəcəlidir.

3. "Qüsursuz xidmətə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" Azərbaycan Respublikasının yubiley medalından sonra taxılır.

## "Qüsursuz xidmətə görə" 1-ci, 2-ci və 3-cü dərəcəli medalının təsviri

*Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli, 330-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir*

"Qüsursuz xidmətə görə" medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş, dairəvi formalı və diametri 35 mm girdə lövhədən ibarətdir.

Medalın ön tərəfində açılmış qartal qanadları fonunda çarpazlaşdırılmış tüfənglər və lövbər təsvir edilmişdir.

Medalın yuxarısında milli ornamentin üzərində aypara ilə səkkizguşəli ulduz, aşağısında isə palıd yarpaqlarından çələnglər yerləşdirilmişdir.




Medalın 3-cü dərəcəsi gümüşü rəngli, 2-ci dərəcəsi qızılı rəngli, 1-ci dərəcəsi qızılı rəngli, aypara ilə ulduz ağ, tüfənglər gümüşü, lövbər isə qara rəngdədir.

Arxa tərəfi hamar səthlidir, ortasında 1-ci dərəcəli medalda "20 il qüsursuz xidmətə görə", 2-ci dərəcəli medalda "15 il qüsursuz xidmətə görə", 3-cü dərəcəli medalda "10 il qüsursuz xidmətə görə" sözləri yazılmış və milli ornamentin üzərində aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Çevrə boyunca yuxarıda "Azərbaycan Respublikası", aşağıda isə "Silahlı Qüvvələri" sözləri həkk olunmuşdur.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə zeytun rəngli fonda, kənarlarından mərkəzə doğru ardıcıl olaraq Silahlı Qüvvələrin növlərinin rəngləri - 1 mm enində zeytun və ağ rəngli, 3 mm enində göy və ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir. Zeytun rəngin ortasında medalın 1-ci dərəcəsi üçün eni 1 mm olan qızılı rəngli bir şaquli zolaq, 2-ci və 3-cü dərəcəsi üçün eni 1 mm olan müvafiq olaraq iki və üç zolaq vardır.

Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Dövlət qulluğunda fərqlənməyə görə" medal

## "Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 noyabr 2003-cü il*

*№ 515-IIQ*

### Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalının Əsasnaməsi

*Azərbaycan Respublikasının*
*2003-cü il 7 noyabr tarixli 515-IIQ*
*Qanunu ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikasının "Dövlət qulluğunda fərqlənməyə görə" medalı dövlət qulluqçularına aşağıdakılara görə verilir:

- milli dövlət quruculuğu sahəsinə aid mühüm layihələrin hazırlanmasında və onların həyata keçirilməsində fəal iştiraka görə;

- dövlət orqanlarında vicdanlı fəaliyyətə və xüsusi xidmətlərə görə.

2. "Dövlət qulluğunda fərqlənməyə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

## "Dövlət qulluğunda fərqlənməyə görə" medalının təsviri

*Azərbaycan Respublikasının*
*2003-cü il 7 noyabr tarixli 515-IIQ qanunu ilə*
*təsdiq edilmişdir*

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı bürüncdəndir, diametri 35 mm olan milli ornamentlərlə naxışlanmış lövhə şəklində tərtib edilmişdir. İkinci səviyyədə olan lövhənin mərkəzində Azərbaycan Respublikasının Dövlət Gerbi təsvir edilmişdir. Gerbin ətrafı boyunca paylanan şüaların üstündə "Dövlət qulluğunda fərqlənməyə görə" sözləri yazılmışdır. Bütün yazılar və təsvirlər qabarıqdır.



Medalın arxa tərəfi hamar səthlidir, ortasında medalın nömrəsi həkk olunmuşdur.

Medal paltara bərkidilmək üçün elementi olan 27 mm x 47,5 mm ölçüdə sarımtıl çəhrayı çalarlı beşbucaqlı xara lenti halqa və ilgək vasitəsilə birləşdirilir.

Medala paltara bərkidilmək üçün elementi olan, milli ornamentlə naxışlanan eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medal

### Azərbaycan Respublikasının "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 21 aprel 2006-cı il*
*№ 97-III Q*

### Azərbaycan Respublikasının "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalının Əsasnaməsi

*Azərbaycan Respublikasının*
*2006-cı il 21 aprel tarixli 97-IIIQ nömrəli*
*Qanunu ilə təsdiq edilmişdir*

1. "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalı ilə Azərbaycan Respublikasının daxili işlər orqanlarında təqvimi hesablama ilə 10, 15 və 20 il xidmət keçmiş (SSRİ daxili işlər orqanlarında xidmət müddəti də nəzərə alınmaqla) əməkdaşlar təltif edilirlər.

2. Daxili işlər orqanlarının əməkdaşları "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalı ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

3. "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalının üç dərəcəsi vardır:

"Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" 1-ci dərəcəli medal – Azərbaycan Respublikasının daxili işlər orqanlarında 20 il xidmətə görə;

"Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" 2-ci dərəcəli medal - Azərbaycan Respublikasının daxili işlər orqanlarında 15 il xidmətə görə;

"Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" 3-cü dərəcəli medal - Azərbaycan Respublikasının daxili işlər orqanlarında 10 il xidmətə görə.

1-ci dərəcəli medal ən ali dərəcədir.

4. "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

## "Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalının təsviri

*Azərbaycan Respublikasının*
*2006-cı il 21 aprel tarixli 97-III Q nömrəli*
*Qanunu ilə təsdiq edilmişdir*

"Daxili işlər orqanlarında qüsursuz xidmətə görə" medalı bürüncdəndir, lövhə şəklində tərtib edilmişdir.

Diametri 32 mm olan lövhənin içində onun mərkəzindən çıxan şüalar və qabarıq şəkildə səkkizguşəli ulduz, ulduzun guşələri arasında isə kürəciklər həkk olunmuşdur. Ulduzun üzərində daxilində Azərbaycan Respublikası daxili işlər orqanlarının emblemi olan dairə təsvir edilmişdir. Dairənin içində çevrə boyu palıd yarpağından çələng yerləşdirilmişdir.

1-ci dərəcəli medal - qızılı, 2-ci dərəcəli medal daxildəki çevrənin səthi və çələng gümüşü olmaqla qızılı, 3-cü dərəcəli medal isə gümüşü rənglidir. Medalın arxa tərəfi hamar səthlidir, yuxarı qövs boyunca "Azərbaycan", aşağı qövs boyunca "Respublikası" sözləri, mərkəzdə isə 3-cü dərəcəli medalda "10 il qüsursuz xidmətə görə", 2-ci dərəcəli medalda "15 il qüsursuz xidmətə görə", 1-ci dərəcəli medalda "20 il qüsursuz xidmətə görə" sözləri həkk olunmuşdur.




Medal paltara bərkidilmək üçün elementi olan, 20 mm x 42 mm ölçüdə, 1-ci və 2-ci dərəcəli medal üçün qızılı, 3-cü dərəcəli medal üçün isə gümüşü rəngli beşbucaqlı metal lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhə öndən iki hissədən ibarətdir. Üst hissə 34 mm uzunluqda düzbucaq olmaqla üzərində lövhənin kənarları və yuxarı tərəfi boyunca eni 2 mm olan, 1-ci və 2-ci dərəcəli medal üçün sarı, 3-cü dərəcəli medal üçün isə boz rəngli, ortada şaquli istiqamətdə 1-ci dərəcəli medal üçün eni 5 mm olan bir, 2-ci dərəcəli medal üçün eni və bir-biri ilə arası 2 mm olan iki, 3-cü dərəcəli medal üçün eni və bir-biri ilə arası 2 mm olan üç zolaq çəkilmiş qırmızı rəngli xara lentlə örtülmüşdür. Lövhənin alt hissəsi hündürlüyü 8 mm olan çevrilmiş trapesiyadır. Trapesiyanın içində, onun oturacağından çıxan şüaların üzərində aypara və səkkizguşəli ulduz təsvir edilmişdir.

Medala paltara bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və eyni xara lentlə örtülmüş 20 mm x 10 mm ölçülü qəlib əlavə olunur.


DİN
AZƏRBAYCAN
15 İL
QÜSURSUZ
XİDMƏTƏ
GÖRƏ
RESPUBLİKASI


DİN
AZƏRBAYCAN
20 İL
QÜSURSUZ
XİDMƏTƏ
GÖRƏ
RESPUBLİKASI

## "Diplomatik xidmətdə fərqlənməyə görə" medal

### "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının*
*2009-cu il 30 iyun tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

1. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının diplomatik rütbəsi olan əməkdaşlarına aşağıdakılara görə verilir:

1.1. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsinə verilən əhəmiyyətli töhfəyə görə;

1.2. diplomatik xidmət sahəsinə aid mühüm layihələrin hazırlanmasında və onların həyata keçirilməsində fəal iştiraka görə;

1.3. Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində mühüm işlərin görülməsinə görə;

1.4. diplomatik xidmət orqanlarında vicdanlı fəaliyyətə və xüsusi xidmətlərə görə.

2. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

### "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsviri

*Azərbaycan Respublikasının*
*2009-cu il 30 iyun tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

1. "Diplomatik xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı bilavasitə dairəvi medaldan və düzbucaqlı lövhədən ibarətdir.



Medalın diametri 35 mm-dir, hər iki üzü qızılı rəngli dairəvi metal lövhədən ibarətdir, üz tərəfində iki dairə yerləşdirilmişdir. Birinci dairədə yuxarı qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASININ", aşağı qövs boyunca "DİPLOMATİK XİDMƏTİ" sözləri həkk olunmuşdur. Medalın ikinci dairəsinin mərkəzində simmetrik şəkildə bir-birinin üstünə qoyularaq Azərbaycan milli ornamentlərinin elementini əks etdirən qabarıq qızılı haşiyə içərisində "DİPLOMATİK XİDMƏTDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ" sözləri həkk olunmuşdur.

Medalın arxa tərəfi hamar səthlidir, ortasında diametri 21 mm olan Azərbaycan Respublikasının Dövlət gerbinin qızılı rəngdə qabarıq əksi həkk olunmuşdur.

Medal paltara bərkidilmək üçün elementi olan, 27 mm x 39 mm ölçüdə, aşağıya doğru bucaq altında kəsilən göy rəngli ("Panton 3005 C") metal lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhənin üzərində aşağı sol küncdən yuxarı sağ küncə doğru yüksələn və hər birinin eni 0,5 mm olan 4 qızılı zolaqdan və onların arasında yerləşən, hər birinin eni 4 mm olan və Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərini əks etdirən 3 maili zolaqdan ibarət element yerləşir. Lövhənin alt hissəsində eni 4 mm olan qızılı təbəqə bərkidilir.

Medala 27 mm x 9 mm ölçüdə, paltara bərkidilmək üçün elementi olan, metaldan düzəldilmiş və göy rəngli ("Panton 3005 C") fonda, üzərindəki lövhədə Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərini əks etdirən üç maili zolağı təkrar edən element yerləşdirilmiş qəlib əlavə olunur.

## "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" medal

## "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005-2010)" Azərbaycan Respublikasının yubiley medalının, "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə", "Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə" və "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" Azərbaycan Respublikasının medallarının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005-2010)" Azərbaycan Respublikasının yubiley medalı, "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə", "Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə" və "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" Azərbaycan Respublikasının medalları təsis edilsin.

II. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 23, maddə 996; 1993-cü il, № 23, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, № 5, maddə 251; 2003-cü il, № 12, I kitab, maddə 677; 2005-ci il, № 4, maddə 291; 2006-cı il, № 10, maddə 846; 2007-ci il, № 3, maddə 213; 2008-ci il, № 6, maddələr 452, 472; 2009-cu il, № 1, maddə 4, № 7, maddə 515) 2-ci maddəsinin iyirmi ikinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və maddəyə aşağıdakı məzmunda iyirmi üçüncü - iyirmi altıncı abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005-2010)" yubiley medalı;

"Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medalı;

"Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə" medalı;

"Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" medalı.".

III. "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005-2010)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

IV. "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 5 illiyi (2005-2010)" Azərbaycan Respublikasının yubiley medalının təsviri təsdiq edilsin (əlavə olunur).

V. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

VI. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsviri təsdiq edilsin (əlavə olunur).

VII. "Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

VIII. "Fövqəladə hallar orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsviri təsdiq edilsin (əlavə olunur).

IX. "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

X. "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" Azərbaycan Respublikasının medalının təsviri təsdiq edilsin (əlavə olunur).

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 oktyabr 2010-cu il*
*№: 1112-IIIQ*

## "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

1. "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarında xidmətinin hər il dekabrın 16-na qədər 10, 15 və 20 təqvim ili tamam olmuş xüsusi rütbəsi olan əməkdaşlar vəzifə borclarını qüsursuz yerinə yetirdiklərinə görə təltif edilirlər.

2. "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" Azərbaycan Respublikası medalının 3 dərəcəsi vardır:

2.1. "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı – Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarında 20 il qüsursuz xidmət edən şəxslərə;

2.2. "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" 2-ci dərəcəli Azərbaycan Respublikasının medalı – Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarında 15 il qüsursuz xidmət edən şəxslərə;

2.3. "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" 3-cü dərəcəli Azərbaycan Respublikasının medalı – Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarında 10 il qüsursuz xidmət edən şəxslərə verilir.

3. “Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə” 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı ən yüksək dərəcəlidir.

4. “Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci bəndində göstərilən şəxslər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

5. “Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

## “Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə” 1-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2010-cu il*
*22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

“Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə” 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, dairəvi formalı, diametri 35 mm olan lövhədən ibarətdir.

Medalın ön tərəfinin səthi relyeflidir. Medalın mərkəzində relyefli şüaların fonunda, kəsişən qılıncların üzərində Fövqəladə Hallar Nazirliyinin emblemindən ibarət kompozisiya təsvir olunmuşdur. Bu kompozisiyadan yuxarıda qövs boyunca lentin üzərində “QÜSURSUZ XİDMƏTƏ GÖRƏ” sözləri yazılmış, aşağı hissədə isə palıd yarpaqlarından çələng təsviri verilmişdir. Kəsişən qılıncların üzərində Fövqəladə Hallar Nazirliyinin emblemindən ibarət kompozisiya, lent, palıd yarpaqlarından çələng, lövhənin fonu və sözlər relyefli və qızılı rəngdədir.



Medalın arxa tərəfi hamar səthlidir, ortasında Fövqəladə Hallar Nazirliyinin emblemi həkk olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca “AZƏRBAYCAN RESPUBLİKASI”, aşağıda isə “FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ” sözləri yazılmışdır. Sözlərin arasında iki ədəd səkkizguşəli ulduz yerləşdirilmişdir. Emblem, lövhənin fonu və sözlər relyefli və qızılı rəngdədir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə kənarlarından mərkəzə doğru ardıcıl olaraq ölçüsü 3 mm enində narıncı, 6,5 mm enində göy, mərkəzdə 8 mm enində ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir. Ağ rəngli zolağın üzərində dərəcəni bildirən, ölçüsü 3 mm olan 1 yaşıl rəngli şaquli zolaq təsvir olunmuşdur.

Paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə edilir.

## "Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" 2-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2010-cu il*
*22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

"Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə" 2-ci dərəcəli Azərbaycan Respublikasının medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, dairəvi formalı, diametri 35 mm olan lövhədən ibarətdir.

Medalın ön tərəfinin səthi relyeflidir. Medalın mərkəzində relyefli qızılı rəngli şüaların fonunda, kəsişən qılıncların üzərində Fövqəladə Hallar Nazirliyinin emblemindən ibarət kompozisiya təsvir olunmuşdur. Bu kompozisiyadan yuxarıda qövs boyunca lentin üzərində "QÜSURSUZ XİDMƏTƏ GÖRƏ" sözləri yazılmış, aşağı hissədə isə palıd yarpaqlarından çələng təsviri verilmişdir. Kəsişən qılıncların üzərində Fövqəladə Hallar Nazirliyinin emblemindən ibarət kompozisiya, lent, palıd yarpaqlarından çələng, sözlər və dairəvi formalı lövhənin çərçivəsi relyefli və qızılı, lövhənin fonu isə gümüşü rəngdədir.




Medalın arxa tərəfi hamar səthlidir, ortasında Fövqəladə Hallar Nazirliyinin emblemi həkk olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASI", aşağıda isə "FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ" sözləri yazılmışdır. Sözlərin arasında iki ədəd səkkizguşəli ulduz yerləşdirilmişdir. Emblem və lövhənin fonu gümüşü, sözlər və relyefli dairəvi formalı lövhənin çərçivəsi isə qızılı rəngdədir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə kənarlarından mərkəzə doğru ardıcıl olaraq ölçüsü 3 mm enində narıncı, 6,5 mm enində göy, mərkəzdə 8 mm enində ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir. Ağ rəngli zolağın üzərində dərəcəni bildirən, ölçüsü 1,5 mm olan 2 yaşıl rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

Paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə edilir.

## “Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə” 3-cü dərəcəli Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2010-cu il*
*22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

“Fövqəladə hallar orqanlarında qüsursuz xidmətə görə” 3-cü dərəcəli Azərbaycan Respublikasının medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və gümüş suyuna çəkilmiş, dairəvi formalı, diametri 35 mm olan lövhədən ibarətdir.




Medalın ön tərəfinin səthi relyeflidir. Medalın mərkəzində relyefli şüaların fonunda, kəsişən qılıncların üzərində Fövqəladə Hallar Nazirliyinin emblemindən ibarət kompozisiya təsvir olunmuşdur. Bu kompozisiyadan yuxarıda qövs boyunca lentin üzərində “QÜSURSUZ XİDMƏTƏ GÖRƏ” sözləri yazılmış, aşağı hissədə isə palıd yarpaqlarından çələng təsviri verilmişdir. Kəsişən qılıncların üzərində Fövqəladə Hallar Nazirliyinin emblemindən ibarət kompozisiya qızılı, lent, palıd yarpaqlarından çələng və sözlər relyefli və gümüşü rəngdədir.

Medalın arxa tərəfi hamar səthlidir, ortasında Fövqəladə Hallar Nazirliyinin emblemi həkk olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca “AZƏRBAYCAN RESPUBLİKASI”, aşağıda isə “FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ” sözləri yazılmışdır. Sözlərin arasında iki ədəd səkkizguşəli ulduz yerləşdirilmişdir. Emblem və sözlər relyefli və gümüşü rəngdədir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə kənarlarından mərkəzə doğru ardıcıl olaraq ölçüsü 3 mm enində narıncı, 6,5 mm enində göy, mərkəzdə 8 mm enində ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir. Ağ rəngli zolağın üzərində dərəcəni bildirən, ölçüsü 1,5 mm olan 3 yaşıl rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

Paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə edilir.

## "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" medal

## "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

1. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarının xüsusi rütbəsi olan əməkdaşları aşağıdakılara görə təltif edilirlər:

1.1. Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarında xidmətdə xüsusi fərqlənməyə və səmərəli fəaliyyətə görə;

1.2. Əhalinin və ərazilərin fövqəladə hallardan qorunmasında və fövqəladə halların nəticələrinin aradan qaldırılmasında fəal iştiraka görə;

1.3. Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarının inkişafında göstərdiyi xüsusi xidmətlərə görə.

2. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının 3 dərəcəsi vardır:

2.1. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarında azı 20 il xidmət edən şəxslərə;

2.2. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" 2-ci dərəcəli Azərbaycan Respublikasının medalı Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarında azı 15 il xidmət edən şəxslərə;

2.3. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli Azərbaycan Respublikasının medalı Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarında azı 10 il xidmət edən şəxslərə verilir.

3. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı ən yüksək dərəcəlidir.

4. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının fövqəladə hallar orqanlarının əməkdaşları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

5. "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

## “Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə” 1-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2010-cu il*
*22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

“Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə” 1-ci dərəcəli Azərbaycan Respublikasının medalı milli ornamentli, ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, dairəvi formalı, diametri 35 mm olan lövhədən ibarətdir.

Medalın ön tərəfi hamar səthlidir. Medalın mərkəzində ikinci bir dairəvi lövhə yerləşdirilib. Bu lövhənin fonu qeyri-hamar səthlidir. Lövhənin ortasında relyefli şüaların fonunda, dəfnə yarpaqlarından hörülmüş çələngin üzərində Fövqəladə Hallar Nazirliyinin emblemi təsvir edilmişdir.

Mərkəzdəki lövhə ilə medalın daxili çərçivələri arasında yuxarıda qövs boyunca milli ornament, aşağı hissədə lentin üzərində “XİDMƏTDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ” sözləri yazılmışdır. Fövqəladə Hallar Nazirliyinin emblemi ilə dəfnə yarpaqları, lent, relyefli şüalar, milli ornament və fonlar qızılı, sözlər isə qara rəngdədir.




Medalın arxa tərəfi hamar səthlidir, ortasında Fövqəladə Hallar Nazirliyinin emblemi həkk olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca “AZƏRBAYCAN RESPUBLİKASI”, aşağıda isə “FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ” sözləri yazılmışdır. Sözlərin arasında iki ədəd səkkizguşəli ulduz yerləşdirilmişdir. Emblem və sözlər relyefli və qızılı rəngdədir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə kənarlarından mərkəzə doğru ardıcıl olaraq ölçüsü 3 mm enində yaşıl, 1 mm enində ağ, 5,5 mm enində narıncı və mərkəzdə 8 mm enində yaşıl rəngli şaquli zolaqlar təsvir edilmişdir. Mərkəzdə yerləşən yaşıl rəngli zolağın üzərində dərəcəni bildirən ölçüsü 3 mm olan 1 sarı rəngli şaquli zolaq təsvir olunmuşdur.

Paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə edilir.

## “Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə” 2-ci dərəcəli Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2010-cu il
22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

“Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə” 2-ci dərəcəli Azərbaycan Respublikasının medalı milli ornamentli, ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, dairəvi formalı, diametri 35 mm olan lövhədən ibarətdir.

Medalın ön tərəfi hamar səthlidir. Medalın mərkəzində ikinci bir dairəvi lövhə yerləşdirilib. Bu lövhənin fonu qeyri-hamar səthlidir. Lövhənin ortasında relyefli şüaların fonunda, dəfnə yarpaqlarından hörülmüş çələngin üzərində Fövqəladə Hallar Nazirliyinin emblemi təsvir edilmişdir.




Mərkəzdəki lövhə ilə medalın daxili çərçivələri arasında yuxarıda qövs boyunca milli ornament, aşağı hissədə lentin üzərində “XİDMƏTDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ” sözləri yazılmışdır. Fövqəladə Hallar Nazirliyinin emblemi, dəfnə yarpaqları, lent, relyefli şüalar, milli ornament və medalın mərkəzindəki ikinci lövhənin fonu qızılı, medalın əsas dairəvi lövhənin fonu gümüşü, sözlər isə qara rəngdədir.

Medalın arxa tərəfi hamar səthlidir, ortasında Fövqəladə Hallar Nazirliyinin emblemi həkk olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca “AZƏRBAYCAN RESPUBLİKASI”, aşağıda isə “FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ” sözləri yazılmışdır. Sözlərin arasında iki ədəd səkkizguşəli ulduz yerləşdirilmişdir. Emblem, lövhənin fonu gümüşü, sözlər relyefli və qızılı rəngdədir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsi ilə birləşdirilir. Xara lentdə kənarlarından mərkəzə doğru ardıcıl olaraq ölçüsü 3 mm enində yaşıl, 1 mm enində ağ, 5,5 mm enində narıncı və mərkəzdə 8 mm enində yaşıl rəngli şaquli zolaqlar təsvir edilmişdir. Mərkəzdə yerləşən yaşıl rəngli zolağın üzərində dərəcəni bildirən ölçüsü 1,5 mm olan 2 sarı rəngli şaquli zolaq təsvir olunmuşdur.

Paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə edilir.

## “Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2010-cu il*
*22 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

“Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli Azərbaycan Respublikasının medalı milli ornamentli, ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və gümüş suyuna çəkilmiş, dairəvi formalı, diametri 35 mm olan lövhədən ibarətdir.

Medalın ön tərəfi hamar səthlidir. Medalın mərkəzində ikinci bir dairəvi lövhə yerləşdirilib. Bu lövhənin fonu qeyri-hamar səthlidir. Lövhənin ortasında relyefli şüaların fonunda, dəfnə yarpaqlarından hörülmüş çələngin üzərində Fövqəladə Hallar Nazirliyinin emblemi təsvir edilmişdir.



Mərkəzdəki lövhə ilə medalın daxili çərçivələri arasında yuxarıda qövs boyunca milli ornament, aşağı hissədə lentin üzərində “XİDMƏTDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ” sözləri yazılmışdır. Fövqəladə Hallar Nazirliyinin emblemi ilə dəfnə yarpaqları qızılı, lent, relyefli şüalar, milli ornament və fonlar gümüşü, sözlər isə qara rəngdədir.

Medalın arxa tərəfi hamar səthlidir, ortasında Fövqəladə Hallar Nazirliyinin emblemi həkk olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca “AZƏRBAYCAN RESPUBLİKASI”, aşağıda isə “FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ” sözləri yazılmışdır. Sözlərin arasında iki ədəd səkkizguşəli ulduz yerləşdirilmişdir. Emblem və sözlər relyefli, gümüşü rəngdədir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə kənarlarından mərkəzə doğru ardıcıl olaraq ölçüsü 3 mm enində yaşıl, 1 mm enində ağ, 5,5 mm enində narıncı və mərkəzdə 8 mm enində yaşıl rəngli şaquli zolaqlar təsvir edilmişdir. Mərkəzdə yerləşən yaşıl rəngli zolağın üzərində dərəcəni bildirən ölçüsü 1,5 mm olan 3 sarı rəngli şaquli zolaq təsvir olunmuşdur.

Paltara bərkidilmək üçün medalın elementi olan xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə edilir.

## Nizami Gəncəvi adına Qızıl medal

## “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2014-cü il*
*16 may tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1.** Təltif edilən şəxslər

1.1. “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” ilə Azərbaycan Respublikasının vətəndaşları və əcnəbilər ildə bir dəfə mühüm fundamental və tətbiqi elmi nəticələrə, əsərlərə, kəşflərə, ixtiralara, habelə elmin inkişafında xüsusi xidmətlərə görə sağlığında təltif edilirlər.




1.2. Bu Əsasnamənin 1.1-ci maddəsində göstərilən xidmətlərinə görə Azərbaycan Respublikasının digər orden və medalları ilə təltif edilmiş şəxslər eyni xidmətlərə görə “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” ilə təltif edilə bilməzlər.

**Maddə 2.** Təltif edən orqan

“Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq qurum təltif edir.

Maddə 3. Döşə taxılma qaydası“Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

## “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı”nın Təsviri

*Azərbaycan Respublikasının 2014-cü il*
*16 may tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1**. Medalın ümumi təsviri

“Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” (bundan sonra – medal) diametri 30 mm olan, bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş dairəvi lövhədən ibarətdir.

**Maddə 2.** Medalın ön tərəfi

Medalın ön tərəfində üç dairə əks olunmuşdur. Birinci dairədə yuxarı qövs boyunca “AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI”, aşağı qövs boyunca “NİZAMİ GƏNCƏVİ” sözləri yazılmışdır. İkinci dairənin üzəri şəbəkəvari naxışlarla haşiyələnmiş,

üçüncü dairənin mərkəzində Nizami Gəncəvinin təsviri həkk olunmuşdur. Medalın ön tərəfindəki yazılar və təsvirlər qabarıqdır.

**Maddə 3.** Medalın arxa tərəfi

Medalın arxa tərəfində iki dairə əks olunmuşdur. İkinci dairənin üzərində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun orta hissəsində "NİZAMİ GƏNCƏVİ" sözləri, ondan aşağıda "1141-1209" rəqəmləri yazılmışdır. Medalın arxa tərəfindəki yazılar və təsvirlər qabarıqdır.

**Maddə 4.** Medalın elementləri

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 20 mm x 15 mm ölçüdə düzbucaqlı metal lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhəyə Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğun mavi, qırmızı və yaşıl rəngli bərabər ölçüdə şaquli zolaqlara bölünmüş xara lentdən üz çəkilir. Lövhənin ön tərəfindəki qırmızı zolağın ortasında qızılı rəngli aypara və səkkizguşəli ulduz təsviri həkk edilir. Lövhənin yuxarı və aşağı hissələrinə eni 1 mm olan üçbucaqvari çıxıntıları olan qızılı təbəqə bərkidilir.

4.2. Medala paltara bərkidilmək üçün medalın elementi olan eyni xara lentdən üz çəkilmiş 20 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

## "Şücaətə görə" medal

## Azərbaycan Respublikasının "Şücaətə görə" medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2016-cı il*
*14 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

Azərbaycan Respublikasının "Şücaətə görə" medalı ilə vətənin müdafiəsində hərbi borcunu yerinə yetirərkən fədakarlıq və şücaət göstərən hərbi qulluqçular və vəzifə borcunu yerinə yetirən digər şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

Azərbaycan Respublikasının "Şücaətə görə" medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

Azərbaycan Respublikasının "Şücaətə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda Azərbaycan Respublikasının "Hərbi xidmətlərə görə" medalından sonra taxılır.

## Azərbaycan Respublikasının "Şücaətə görə" medalının təsviri

*Azərbaycan Respublikasının 2016-cı il*
*14 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Medalın ümumi təsviri**

Azərbaycan Respublikasının "Şücaətə görə" medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm və qalınlığı 3 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsvir edilmişdir. Səkkizguşəli ulduzun yuxarı hissəsində qövs boyunca "ŞÜCAƏTƏ GÖRƏ" sözləri yazılmışdır.




2.2. Medalın ön tərəfinin aşağı hissəsinin mərkəzindən sol və sağ tərəflərə qövs boyunca palıd yarpaqlarından ibarət çələng təsviri yerləşdirilmişdir.

2.3. Səkkizguşəli ulduzun aşağı hissəsindən medalın yuxarı hissəsinə doğru açılan günəş şüaları təsvir edilmişdir. Səkkizguşəli ulduzun üzərinə göy mina çəkilmişdir.

2.4. Bütün yazılar və elementlər relyeflidir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin mərkəzində "AZƏRBAYCAN RESPUBLİKASININ "ŞÜCAƏTƏ GÖRƏ" MEDALI" sözləri yazılmışdır.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın nömrəsi həkk olunmuşdur.

3.3. Bütün yazılar relyeflidir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medalın paltarın yaxasına bərkidilmək üçün 37 mm x 50 mm ölçüdə, halqa və ilgək vasitəsilə medala birləşdirilən beşbucaqlı elementi vardır.

4.2. Elementin üzərinə mərkəzində 15 mm enində boz, mərkəzdən kənarlara doğru, ardıcıl olaraq, 1 mm enində ağ və 10 mm enində göy üfüqi zolaqlar təsvir edilmiş xara lent çəkilmişdir.

4.3. Elementin yuxarı hissəsinə 40 mm x 5 mm ölçüdə, üzərində ulduz, aypara və dəfnə yarpaqları təsvir edilmiş lövhə bərkidilmişdir. Ulduz, aypara və dəfnə yarpaqları relyeflidir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

## “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” medal

### “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının*
*2018-ci il 13 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1**. Təltif edilən şəxslər

“Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı ilə səfərbərlik və həqiqi hərbi xidmətə çağırış işlərinin təşkilində, vətəndaşların hərbi vətənpərvərlik tərbiyəsində və vətənpərvərlik təbliğatında göstərdiyi xidmətlərə görə müvafiq icra hakimiyyəti orqanının hərbi qulluqçuları, mülki işçiləri və digər şəxslər təltif edilirlər.

**Maddə 2.** Təltif edən orqan

“Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanı təltif edir.

**Maddə 3.** Taxılma qaydası

“Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

### “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” Azərbaycan Respublikası medalının Təsviri

*Azərbaycan Respublikasının*
*2018-ci il 13 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1**. Medalın ümumi təsviri “Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı (bundan sonra medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi metal lövhədən ibarətdir.




**Maddə 2.** Medalın ön tərəfi

Medalın ön tərəfinin mərkəzində hər iki tərəfdən çevrə boyunca palıd yarpaqları ilə haşiyələnmiş nişangah, nişangahın üzərində iki çarpaz qılınc, qılıncların yuxarı iti ucları arasında təyyarə qanadları, təyyarə qanadlarının mərkəzində paraşüt, qılıncların kəsişmə nöqtəsindən aşağıda gəmi lövbəri təsvir edilmiş kompozisiya həkk olunur. Aşağı hissədə səkkizguşəli ulduz həkk olunmaqla soldan sağa doğru qövs boyunca “HƏRBİ

VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ XİDMƏTLƏRƏ GÖRƏ” sözləri yazılır. Bütün yazılar və təsvirlər qabarıqdır.

**Maddə 3.** Medalın arxa tərəfi

Medalın arxa tərəfinin səthi hamardır, orta hissəsində medalın seriyası və nömrəsi həkk olunur.

**Maddə 4.** Medalın elementləri




4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı lövhəyə ilgək və iki halqa vasitəsilə birləşdirilir. Lövhəyə kənarlarından mərkəzə doğru ardıcıl olaraq 1 mm enində qızılı, 3 mm enində tünd zeytun və 5 mm enində ağ rəngli şaquli zolaqlar, mərkəzində isə 19 mm enində tünd zeytun rəngli şaquli zolaq təsvir edilmiş xara lent çəkilmişdir. Lövhənin ön tərəfinin yuxarı hissəsində 37 mm x 5 mm ölçüdə üzərində relyefli palıd yarpaqları təsviri olan düzbucaqlı lövhə bərkidilmiş, aşağı hissəsində isə lövhənin mərkəzində relyefli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir.

4.2. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.



## "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı

### "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının*
*2018-ci il 1 may tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin varisləri və Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

### "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

*Azərbaycan Respublikasının*
*2018-ci il 1 may tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Medalın ümumi təsviri**




"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, səkkizguşəli dalğavari konturlu, diametri 40 mm olan, üzərində ikitərəfli hamar şüalı səkkizguşəli ulduz yerləşdirilmiş lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində dalğavari səkkizguşəli konturlu hissəsində, səkkizguşəli ulduzun guşələrinin arasında kontur xətləri təsvir olunmuşdur.

2.2. Səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşir. Xarici və daxili konturların arasında yuxarı

qövs boyunca "Azərbaycan Xalq Cümhuriyyəti" sözləri, aşağı qövs boyunca mərkəzdə 3 mm diametri bir səkkizguşəli ulduz, ondan sol və sağ tərəflərdə hər birinin diametri 2 mm olan iki səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzların və ulduzlarla sözlərin arasında kompozisiyanı tamamlayan xətlər vardır.

2.3. Dairəvi lövhənin daxili konturunun içərisində doğan günəş şüaları üzərində aypara və səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzdan sol tərəfdə "1918", sağ tərəfdə "2018" rəqəmləri yazılmışdır. Ayparanın daxilində "100" rəqəmi həkk olunmuşdur. Bütün elementlər, yazılar və kontur xətləri, relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 42 mm x 15 mm ölçülü bant şəklində bükülmüş, üzərində hər birinin eni 5 mm olmaqla, Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini əks etdirən üfüqi zolaqlar təsvir edilmiş ipək lentə 2 halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. İpək lentin mərkəzində 17 mm x 22,5 mm ölçülü altıbucaqlı lövhə bərkidilir. Lövhənin üzərində günəş şüaları fonunda aypara və səkkizguşəli ulduz təsvir olunmuşdur. Lövhənin sol və sağ tərəfləri kontur boyunca palıd çələngləri formasında işlənmişdir. Günəş şüaları, aypara, ulduz və palıd çələngləri relyefli olaraq qabarıqdır.

4.3. Medala paltara bərkidilmək üçün elementi olan, eyni ipək lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur. Qəlibin mərkəzinə diametri 8 mm olan, üzərində aypara və səkkizguşəli ulduz təsvir olunmuş dairəvi lövhə bərkidilir.

## “Diplomatik xidmətə verilən töhfəyə görə” medal
## “Diplomatik xidmətə verilən töhfəyə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə
## Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir

**Maddə 1. Təltif edilən şəxslər**

1.0. "Diplomatik xidmətə verilən töhfəyə görə" Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı xidmətlərinə görə təltif edilirlər:

1.0.1. diplomatik xidmət sahəsində səmərəli fəaliyyətə görə;

1.0.2. beynəlxalq əməkdaşlıq sahəsində əlaqələrin inkişafında və möhkəmləndirilməsində göstərilən xidmətlərə görə;

1.0.3. sülhün və xalqlar arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinin təşviqinə görə;

1.0.4. Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsinə verilən əhəmiyyətli töhfəyə görə;

1.0.5. Azərbaycan Respublikasının beynəlxalq aləmdə ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafında göstərilən xidmətlərə görə;

1.0.6. Azərbaycan dilinin və mədəniyyətinin təbliğinə görə;

1.0.7. xaricdə yaşayan azərbaycanlılara dəstək məqsədilə həyata keçirilmiş layihələrə görə.

**Maddə 2. Təltif edən orqan**

"Diplomatik xidmətə verilən töhfəyə görə" Azərbaycan Respublikasının medalı ilə bu əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Diplomatik xidmətə verilən töhfəyə görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

## "Diplomatik xidmətə verilən töhfəyə görə" Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının*
*2018-ci il 30 oktyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Medalın ümumi təsviri**

"Diplomatik xidmətə verilən töhfəyə görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) diametri 36 mm olan, qızıl suyuna çəkilmiş dairəvi bürünc lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**




2.1. Medalın ön tərəfi iki çevrə ilə konturlanmışdır. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASI" sözləri, aşağı qövs boyunca "DİPLOMATİK XİDMƏTƏ VERİLƏN TÖHFƏYƏ GÖRƏ" sözləri yazılmışdır. Yazıların arasında, sol və sağ tərəflərdə səkkizguşəli ulduz yerləşdirilmişdir.

2.2. Medalın daxili çevrəsinin mərkəzindən aşağı yer kürəsinin təsvirini əks etdirən meridianlar və paralellər təsvir edilmişdir. Yer kürəsinin təsvirinin alt hissəsindən sol və sağ tərəflərdə qövs boyunca daxili dairənin yuxarı tərəfinə doğru dəfnə yarpaqlarından ibarət çələng yerləşdirilmişdir. Yer kürəsinin təsvirinin üst tərəfində, sol və sağ tərəfdəki çələngin arasında aypara və ulduz təsvir edilmişdir. Medalın ön tərəfində bütün yazılar və təsvirlər relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.2. Medalın arxa tərəfinin səthi hamar, yazılar isə relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçüdə beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində hər birinin eni 11 mm olmaqla, Azərbaycan Respublikası Dövlət bayrağının rənglərini əks etdirən yaşıl, qırmızı və mavi rənglərdə şaquli zolaqlar təsvir edilmişdir. Xara lentin kənarlarında və Azərbaycan Respublikası Dövlət bayrağının rənglərinin arasında hər birinin eni 1 mm olan dörd qızılı şaquli zolaq təsvir edilmişdir.

4.3. Xara lentin yuxarı hissəsinə üzərində relyefli aypara, ulduz və lent təsvir edilmiş 40 mm x 5,5 mm ölçülü qızıl suyuna çəkilmiş bürünc lövhə bərkidilir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçüdə qəlib əlavə edilir. Qəlibin mərkəzinə diametri 8 mm olan, üzərində qızılı rəngdə aypara və ulduz təsvir edilmiş dairəvi lövhə bərkidilir.

## “Cəsur döyüşçü” medalı

## “Cəsur döyüşçü”
## Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2020-ci il*
*26 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

“Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinin azad olunması zamanı müstəqil və ya digər qoşun növləri ilə birlikdə strateji və ya xüsusi əhəmiyyətli ərazilərin tutulması üzrə döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, havada və yerdə düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “İgidliyə görə” medalından sonra taxılır.

## “Cəsur döyüşçü” Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2020-ci il*
*26 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Medalın ümumi təsviri**

“Cəsur döyüşçü” Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) diametri 38 mm olan, bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş səkkizguşəli lövhədən ibarətdir.




**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində səkkizguşəli lövhə dekorativ naxışla bəzədilmiş zolaq ilə konturlanmışdır.

2.2. Konturun içərisində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.3. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “CƏSUR DÖYÜŞÇÜ” sözləri yazılmış, aşağı qövs boyunca milli ornamentlər təsvir olunmuşdur.

2.4. Daxili çevrənin içərisində iki kəsişən qılınc və qalxandan ibarət kompozisiya təsvir olunmuşdur.

2.5. Kompozisiyadan sol və sağ tərəflərdə iki səkkizguşəli ulduz həkk olunmuşdur.

2.6. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan 37 mm x 24 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Tünd qırmızı rəngli xara lentin sol və sağ kənarlarından 3 mm aralı, hər birinin eni 4 mm olan iki şaquli ağ zolaq təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

## “Döyüşdə fərqlənməyə görə” medal

## “Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı ilə döyüş şəraitində tapşırıqların icrası zamanı və həyat riski ilə əlaqəli xüsusi əməliyyatlar zamanı göstərilən fərqlilik, cəsarət və fədakarlıq, habelə döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə kömək edən bacarıqlı, təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etmiş, eləcə də döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi zamanı tabeçilikdə olan bölməyə peşəkarlıqla rəhbərlik etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Cəsur döyüşçü” medalından sonra taxılır.

## “Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Medalın ümumi təsviri**

“Döyüşdə fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, biri digərindən kiçik olmaqla, biri digərinin üzərində yerləşdirilmiş, guşələrinin araları birləşən qövsvarı xətlərlə konturlanmış iki səkkizguşəli ulduz formalı 42 mm ölçülü lövhədən ibarətdir.




**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində səkkizguşəli ulduz formalı lövhənin üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.2. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “DÖYÜŞDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ” sözləri yazılmışdır.

2.3. Daxili çevrənin içərisində yerləşən, üzəri relyefli xətlərlə işlənmiş dairəvi lövhənin mərkəzində ikitərəfli hamar şüalı səkkizguşəli ulduz həkk olunmuşdur.

2.4. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz vardır. Səkkizguşəli ulduz ilə “DÖYÜŞDƏ FƏRQLƏNMƏYƏ GÖRƏ” sözləri arasında kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

2.5. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Qızılı rəngli xara lentin mərkəzində 5 mm enində tünd qırmızı rəngli şaquli zolaq təsvir olunmuşdur. Xara lentin sol və sağ kənarlarından mərkəzə doğru, biri digərindən 3 mm aralı, 3 mm enində tünd qırmızı və 2,5 mm enində yaşıl rəngli şaquli zolaqlar vardır.

4.3. Xara lentin yuxarı hissəsinə üzərində milli ornamentlər təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

## “Suqovuşanın azad olunmasına görə” medalı

## “Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2020-ci il*
*26 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Suqovuşan kəndinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Döyüşdə fərqlənməyə görə” medalından sonra taxılır.

## “Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2020-ci*
*il 26 noyabr tarixli*
*Qanunu ilə təsdiq edilmişdir*

**1. Medalın ümumi təsviri**

“Suqovuşanın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.




**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca “SUQOVUŞAN”, aşağı qövs boyunca “3 OKTYABR 2020” sözləri yazılmışdır.

2.3. “3 OKTYABR 2020” sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. “SUQOVUŞAN” sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan

xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca "SUQOVUŞANIN AZAD OLUNMASINA GÖRƏ" sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

## “Cəbrayılın azad olunmasına görə” medal

## “Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2020-ci il
26 noyabr tarixli
Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Suqovuşanın azad olunmasına görə” medalından sonra taxılır.

## “Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2020-ci
il 26 noyabr tarixli
Qanunu ilə təsdiq edilmişdir*

**1. Medalın ümumi təsviri**

“Cəbrayılın azad olunmasına görə” Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.




**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca “CƏBRAYIL”, aşağı qövs boyunca “4 OKTYABR 2020” sözləri yazılmışdır.

2.3. “4 OKTYABR 2020” sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. “CƏBRAYIL” sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur. Daxili çevrənin içərisində, doğan

günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca "CƏBRAYILIN AZAD OLUNMASINA GÖRƏ" sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin mərkəzində 10 mm enində qızılı rəngli şaquli zolaq, qızılı rəngli zolaqdan sol və sağ kənarlara doğru ardıcıl olaraq 8 mm enində bir göy rəngli və 5.5 mm enində bir qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

## “Xocavəndin azad olunmasına görə” medal
## “Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları təltif edilir.

**Maddə 2. Təltif edən orqan**

“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, “Cəbrayılın azad olunmasına görə” medalından sonra taxılır.

## “Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikası medalının təsviri

*Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1.** Medalın ümumi təsviri

“Xocavəndin azad olunmasına görə” Azərbaycan Respublikasının medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.




**Maddə 2.** Medalın ön tərəfi

2.1. Medalın ön tərəfinin kənarları bəzəkli naxışlarla konturlanmışdır.

2.2. Bəzəkli konturdan medalın daxilinə doğru, xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə təsvir olunmuşdur. Xarici və daxili çevrələrin arasında, yuxarı qövs boyunca “XOCAVƏND”, aşağı qövs boyunca “9 OKTYABR 2020” sözləri yazılmışdır.

2.3. “9 OKTYABR 2020” sözlərindən sol və sağ tərəflərdə, aşağıdan yuxarıya doğru dəfnə çələngləri təsvir olunmuşdur. “XOCAVƏND” sözü ilə dəfnə çələnglərinin arasında iki səkkizguşəli ulduz və kompozisiyanı tamamlayan xətlər təsvir

olunmuşdur. Daxili çevrənin içərisində, doğan günəş şüaları fonunda at belində Azərbaycan Respublikasının Dövlət Bayrağını aparan Azərbaycan əsgəri təsvir olunmuşdur.

2.4. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 3.** Medalın arxa tərəfi

3.1. Medalın arxa tərəfində xarici və daxili çevrələrlə konturlanmış lövhənin üzərində qövs boyunca "XOCAVƏNDİN AZAD OLUNMASINA GÖRƏ" sözləri yazılmışdır. Lövhənin aşağı hissəsinin mərkəzində səkkizguşəli ulduz, ulduzla sözlərin arasında isə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

3.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır.

**Maddə 4.** Medalın elementləri

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

Azərbaycan öz müstəqilliyini bəyan etdikdən sonra fəxri adlara dair heç bir xüsusi hüquqi sənəd qəbul olunmamışdır. Buna baxmayaraq, 1991—93-cü illərdə müstəqil Azərbaycan Respublikasında sovet dövrü fəxri adlarının verilməsi davam etdirilmişdir. Yalnız 1993-cü il iyunun 24-dən sonra hüquqi əsası olmayan bu praktikaya son qoyulmuş və heç bir fəxri ad verilməmişdir.

Müstəqil respublikamızda mədəniyyət, ədəbiyyat, elm, təhsil və səhiyyə sahələrinin inkişafında, ümumiyyətlə ölkənin tərəqqisi yolunda böyük nailiyyətlər qazanmış şəxslərin əməyinin qiymətləndirilməsi məqsədi ilə, müxtəlif təşkilatların, ayrı-ayrı vətəndaşların bu məsələ ilə əlaqədar çoxsaylı müraciətlərini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Mədəniyyət, ədəbiyyat, elm, *təhsil, səhiyyə, bədən tərbiyəsi və idman, jurnalistika, mühəndislik, habelə dövlət qulluğu, hüquq və kənd təsərrüfatı* sahələrində Azərbaycan Respublikasının aşağıdakı fəxri adları təsis edilsin:

xalq yazıçısı;
xalq şairi;
xalq artisti;
xalq rəssamı;
əməkdar elm xadimi;
əməkdar incəsənət xadimi;
əməkdar artist;
əməkdar rəssam;
əməkdar mədəniyyət işçisi;
əməkdar müəllim;
əməkdar həkim;
əməkdar memar;
əməkdar dövlət qulluqçusu;
əməkdar bədən tərbiyəsi və idman xadimi;
əməkdar jurnalist;
əməkdar mühəndis;

əməkdar hüquqşünas;

əməkdar kənd təsərrüfatı işçisi;

əməkdar pilot.

2. Bu Fərman imzalandığı günə qədər verilmiş fəxri adlar onları almış şəxslər üçün öz qüvvəsini saxlayır və müstəqil Azərbaycan Respublikasının fəxri adları hesab olunur.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, «Azərbaycan Respublikasının fəxri adları haqqında Əsasnamə» layihəsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Heydər ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 may 1998-ci il*

*№ 706*

## "Azərbaycan Respublikası fəxri adının vəsiqəsi nümunəsinin və Azərbaycan Respublikası fəxri adlarının döş nişanları təsvirinin və eskizlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 9 iyun tarixli 879 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

"Azərbaycan Respublikası fəxri adının vəsiqəsi nümunəsinin və Azərbaycan Respublikası fəxri adlarının döş nişanları təsvirinin və eskizlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 9 iyun tarixli 879 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram: 1. "Azərbaycan Respublikası fəxri adının vəsiqəsi nümunəsinin və Azərbaycan Respublikası fəxri adlarının döş nişanları təsvirinin və eskizlərinin təsdiq edilməsi barədə"

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Azərbaycan Respublikası fəxri adının vəsiqəsi nümunəsinin və Azərbaycan Respublikası fəxri adlarının döş nişanları təsvirinin və eskizlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 9 iyun tarixli 879 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 285; 2004, № 3, maddə 137; 2005, № 8, maddə 705; 2006, № 2, maddə 81; 2010, № 5, maddə 388, № 9, maddə 777) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissənin on doqquzuncu abzasında nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda iyirminci abzas əlavə edilsin:

"Əməkdar tibb işçisi" fəxri adının döş nişanı və vəsiqəsi - 300 ədəd.";

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası fəxri adlarının döş nişanlarının təsviri"nin birinci - dördüncü hissələri aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının fəxri adlarının ("Əməkdar pilot" fəxri adı istisna olmaqla) döş nişanları hər hissəsi iki guşəli olmaqla, səkkiz hissədən ibarətdir. Döş nişanlarının diametri 40 mm, qalınlığı 3 mm-dir.

"Xalq yazıçısı", "Xalq şairi", "Xalq artisti", "Xalq rəssamı", "Əməkdar elm xadimi", "Əməkdar incəsənət xadimi" fəxri adlarının döş nişanları, üstü qırmızı minalı olmaqla, qızıl

suyuna çəkilmiş bürüncdən, "Əməkdar artist", "Əməkdar rəssam", "Əməkdar mədəniyyət işçisi", "Əməkdar müəllim", "Əməkdar həkim", "Əməkdar memar", "Əməkdar dövlət qulluqçusu", "Əməkdar bədən tərbiyəsi və idman xadimi", "Əməkdar jurnalist", "Əməkdar mühəndis", "Əməkdar hüquqşünas", "Əməkdar kənd təsərrüfatı işçisi", "Əməkdar tibb işçisi" fəxri adlarının döş nişanları, üstü göy minalı olmaqla, gümüş suyuna çəkilmiş bürüncdən hazırlanır.

"Əməkdar pilot" fəxri adı istisna olmaqla, fəxri adların döş nişanlarının üz tərəfinin mərkəzində, növünə müvafiq olaraq, qızılı və ya gümüşü rəngdə, diametri 14 mm olan relyefli metal dairənin üzərində səkkizgüşəli ulduz və mərkəzdən kənara doğru alov dilləri təsvir olunmuşdur. Təsvirlər qabarıqdır.

Döş nişanlarının arxa tərəfi hamardır, ortasında relyefli metal dairənin üstündə müvafiq fəxri ad həkk olunmuşdur. Döş nişanı paltarın yaxasına bərkidilmək üçün elementi olan, aşağıya doğru müəyyən bucaq altında kəsilən 37 mm x 50 mm ölçülü xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Qızıl suyuna çəkilmiş döş nişanları üçün göy xara lentin üzərində 6 mm enində dörd qırmızı şaquli zolaq, gümüş suyuna çəkilmiş döş nişanları üçün göy xara lentin sağ və sol kənarlarında 2 mm enində üç qırmızı şaquli zolaq çəkilmişdir. Xara lentin üst hissəsinə 4 mm enində qızılı və ya gümüşü rəngli təbəqə bərkidilir.";

1.3. həmin Fərmanla təsdiq edilmiş "Xalq yazıçısı", "Xalq şairi", "Xalq artisti", "Xalq rəssamı", "Əməkdar elm xadimi", "Əməkdar incəsənət xadimi", "Əməkdar artist", "Əməkdar rəssam", "Əməkdar mədəniyyət işçisi", "Əməkdar müəllim", "Əməkdar həkim", "Əməkdar memar", "Əməkdar dövlət qulluqçusu", "Əməkdar bədən tərbiyəsi və idman xadimi", "Əməkdar jurnalist", "Əməkdar mühəndis", "Əməkdar hüquqşünas" fəxri adlarının döş nişanlarının eskizləri ləğv edilsin;

1.4. "Xalq yazıçısı", "Xalq şairi", "Xalq artisti", "Xalq rəssamı", "Əməkdar elm xadimi", "Əməkdar incəsənət xadimi", "Əməkdar artist", "Əməkdar rəssam", "Əməkdar mədəniyyət işçisi", "Əməkdar müəllim", "Əməkdar həkim", "Əməkdar memar", "Əməkdar dövlət qulluqçusu", "Əməkdar bədən tərbiyəsi və idman xadimi", "Əməkdar jurnalist", "Əməkdar mühəndis", "Əməkdar hüquqşünas" fəxri adlarının döş nişanlarının yeni eskizləri, "Əməkdar kənd təsərrüfatı işçisi" və "Əməkdar tibb işçisi" fəxri adlarının döş nişanlarının eskizləri həmin Fərmana əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 13 noyabr 2012-ci il*
*№: 742*

“Xalq yazıçısı” fəxri adının döş nişanı



“Xalq şairi” fəxri adının döş nişanı



“Xalq rəssamı” fəxri adının döş nişanı



“Əməkdar elm xadimi” fəxri adının döş nişanı



“Xalq artisti” fəxri adının döş nişanı



"Əməkdar incəsənət xadimi" fəxri adının döş nişanı



"Əməkdar jurnalist" fəxri adının döş nişanı



"Əməkdar müəllim" fəxri adının döş nişanı



"Əməkdar mədəniyyət işçisi" fəxri adının döş nişanı



"Əməkdar həkim" fəxri adının döş nişanı



"Əməkdar artist" fəxri adının döş nişanı



"Əməkdar rəssam" fəxri adının döş nişanı



"Əməkdar hüquqşünas" fəxri adının döş nişanı



"Əməkdar tibb işçisi" fəxri adının döş nişanı



"Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adının döş nişanı



"Əməkdar memar" fəxri adının döş nişanı



"Əməkdar dövlət qulluqçusu" fəxri adının döş nişanı



"Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adının döş nişanı



"Əməkdar mühəndis" fəxri adının döş nişanı



## "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1990-cı il yanvarın 20-si Azərbaycan xalqının tarixinə Qanlı Yanvar günü kimi həkk olunmuşdur. Azərbaycanda suveren, demokratik bir dövlət yaratmaq amalı ilə ayağa qalxmış xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq, milli azadlıq hərəkatını boğmaq məqsədi ilə 1990-cı il yanvarın 20-də sovet ordusunun hərbi hissələri Bakıya və respublikanın bir neçə rayonuna yeridilmişdir. Beləliklə, Azərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz edilmişdir. Xalqın haqq işinin müdafiəsi naminə küçələrə çıxmış dinc əhaliyə qarşı ağır cinayət törədilmiş, yüzlərlə insan yaralanmış və qəddarcasına qətlə yetirilmişdir.

20 Yanvar həm də xalqımızın qəhrəmanlıq günüdür. Azərbaycan xalqı hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiqliyini, Vətənin müstəqilliyini qorumaq üçün şəhid olmaq əzmini bütün dünyaya nümayiş etdirmişdir. Azadlıq yolunda özünü qurban vermiş şəhidlərimizin fədakarlığı xalqımızın qəlbində daim yaşayacaq, gələcək nəsillər üçün qəhrəmanlıq məktəbi olacaqdır.

1990-cı ilin yanvarında Azərbaycanın azadlığı uğrunda şəhid olanların xatirəsini əbədiləşdirmək məqsədi ilə qərara alıram:

1. 1990-cı ilin yanvar faciəsi zamanı həlak olmuş Azərbaycan Respublikası vətəndaşları üçün «20 Yanvar Şəhidi» fəxri adı təsis edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay ərzində «20 Yanvar Şəhidi» fəxri adının əsasnaməsini hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 mart 1998-ci il*
*№ 695*

## "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«20 Yanvar şəhidi» fəxri adının təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 31 mart tarixli 695 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. «20 Yanvar şəhidi» fəxri adı haqqında Əsasnamə (əlavə olunur) təsdiq edilsin.
2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 dekabr 1998-ci il*
*№ 51*

## "20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə

*Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

1. «20 Yanvar şəhidi» fəxri adı Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 31 mart tarixli 695 nömrəli Fərmanı ilə təsis edilmişdir. «20 Yanvar şəhidi» fəxri adı ilə Azərbaycan Respublikasının azadlığı, suverenliyi və dövlət müstəqilliyi uğrunda 1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr zamanı həlak olmuş və həmin hadisələr nəticəsində aldığı xəsarətdən (yaralanma, travma, kontuziya) vəfat etmiş şəxslər (ölümündən sonra) təltif olunurlar.

2. «20 Yanvar şəhidi» fəxri adının verilməsi haqqında vəsatət qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq sənədlər əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qaldırılır.

Vəsatət Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən vətəndaşların və ictimai təşkilatların müraciətinə uyğun olaraq qaldırıla bilər.

3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi «20 Yanvar şəhidi» fəxri adı ilə təltif olunmağa hüquq yarandıqdan və ya bu barədə müraciət edildikdən sonra 1 ay müddətində bütün zəruri sənədləri toplayaraq vəsatətlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

4. «20 Yanvar şəhidi» fəxri adı Azərbaycan Respublikası Prezidentinin sərəncamı əsasında verilir.

5. «20 Yanvar şəhidi» fəxri adı ilə təltif olunma haqqında müvafiq vəsiqə şəhid ailəsi statusu almaq hüququ olan ailə üzvlərindən birinə təqdim olunur.

«20 Yanvar şəhidi» fəxri adının vəsiqəsində şəhidin soyadı, adı, atasının adı və təltif olunmaq haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamının nömrəsi, verildiyi tarix qeyd olunur.

6. «20 Yanvar şəhidi» fəxri adı ilə təltif olunanların ailə üzvləri qanunvericilikdə şəhid ailələri üçün nəzərdə tutulan güzəşt və imtiyazlardan istifadə edirlər.

## Azərbaycan Respublikasının Fəxri adları haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikasının Fəxri adları haqqında» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 may tarixli 706 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının Fəxri adları haqqında Əsasnamə təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində fəxri adların vəsiqələrinin nümunələrini və döş nişanlarının təsvirlərini və eskizlərini hazırlayıb Azərbaycan Respublikası Prezidentinin təsdiqinə təqdim etsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 14 may 1999-cu il*
*№ 130*

*4 iyul 2001-ci il tarixli, 530 nömrəli; 30 iyun 2002-ci il tarixli, 727 nömrəli; 23 oktyabr 2003-cü il tarixli, 939 nömrəli; 9 fevral 2004-cü il tarixli, 23 nömrəli; 31 oktyabr 2005-ci il tarixli, 306 nömrəli, 13 fevral 2006-cı il tarixli, 364 nömrəli fərmanlara əsasən dəyişikliklər və əlavələrlə*

## Azərbaycan Respublikasının Fəxri adları haqqında Əsasnamə

*Azərbaycan Respublikası Prezidentinin*
*1999-cu il 14 may tarixli, 130 nömrəli fərmanı ilə*
*təsdiq edilmişdir.*

1. Azərbaycan Respublikasının fəxri adları mədəniyyət, ədəbiyyat, elm, təhsil, səhiyyə, memarlıq, jurnalistika, mühəndislik, bədən tərbiyəsi və idman, habelə dövlət qulluğu və hüquq sahəsində xüsusi xidmətlərə, yüksək peşə ustalığına və ictimai həyatda fəal iştiraka görə verilir.

Azərbaycan Respublikasının fəxri adları Azərbaycan Respublikasının vətəndaşlarına verilir.

Azərbaycan Respublikasının fəxri adları digər ölkələrin vətəndaşlarına da verilə bilər.

2. Azərbaycan Respublikasının eyni fəxri adı bir şəxsə təkrar verilmir.

Azərbaycan Respublikasının bir fəxri adına layiq görülmüş şəxs, əmək fəaliyyətinin digər sahəsində xidmətlərinə görə müvafiq fəxri ad almağa — bu, fəxri adların verilməsi şərtlərinə zidd gəlmirsə, — təqdim edilə bilər.

3. Azərbaycan Respublikasının fəxri adlarına layiq görülmüş şəxslərə Azərbaycan Respublikasının fəxri adının vəsiqəsi və döş nişanı təqdim olunur.

4. «Xalq yazıçısı» fəxri adı Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə, xalqın böyük rəğbətini qazanmış yüksək ideyalı və bədii cəhətdən dəyərli ədəbi əsərlər yaratmağa görə yazıçılara verilir.

«Xalq şairi» fəxri adı Azərbaycan poeziyasının inkişafında böyük xidmətlərinə, xalqın böyük rəğbətini qazanmış yüksək ideyalı və bədii cəhətdən dəyərli ədəbi əsərlər yaratmağa görə şairlərə verilir.

«Xalq artisti» fəxri adı müstəsna dərəcədə dərin ideyalı və bədii cəhətdən yüksək ustalığa, görkəmli bədii obrazlar, tamaşalar, kinofilmlər və musiqi əsərləri yaratmağa, Azərbaycan incəsənətinin inkişafında kadrlar hazırlamaqda və tərbiyə etməkdə böyük xidmətlərinə görə əvvəllər əməkdar artist və ya əməkdar incəsənət xadimi adına layiq görülmüş teatr, filarmoniya, kino, estrada, sirk, ansambl, kapella artistlərinə, rejissorlarına, orkestr və xor dirijorlarına, baletmeysterlərə, musiqi, xor, rəqs və digər kollektivlərin bədii rəhbərlərinə, musiqiçilərə, televiziya və radio verilişləri diktorlarına verilir.

«Xalq rəssamı» fəxri adı əvvəllər əməkdar rəssam fəxri adına layiq görülmüş rəngkarlara, heykəltaraşlara, qrafiklərə, dekorativ-tətbiqi sənət rəssamlarına, müstəsna dərəcədə dərin ideyalı və bədii cəhətdən yüksək ustalığa, görkəmli sənət əsərləri yaratmağa, Azərbaycan təsviri sənətinin inkişafında, kadrların hazırlanmasında və tərbiyə edilməsində böyük xidmətlərinə görə verilir.

«Xalq artisti» və «Xalq rəssamı» fəxri adları bir qayda olaraq müvafiq «Əməkdar» Fəxri adının verilməsindən 5 il keçdikdən sonra verilə bilər.

«Əməkdar elm xadimi» fəxri adı elmi-tədqiqat idarələrinin, ali məktəblərin və digər təşkilatların elmlər doktoru elmi dərəcəsi və professor adı olan, elm sahəsində azı on beş il işləmiş alimlərinə, elmi-praktik işçilərinə verilir.

«Əməkdar incəsənət xadimi» fəxri adı görkəmli, bədii cəhətdən yüksək musiqi, dramaturgiya əsərləri, habelə tamaşalar, kinofilmlər, sənət məsələlərinə dair elmi əsərlər yaradan və Azərbaycan incəsənətinin inkişafında kadrların hazırlanmasında və tərbiyə edilməsində xidmətləri olan bəstəkarlara, rejissorlara, dirijorlara, dramaturqlara, ssenaristlərə, kinooperatorlara, sənətşünaslara və ədəbiyyatşünaslara verilir.

«Əməkdar artist» fəxri adı mühüm bədii obrazlar, tamaşalar, kinofilmlər, musiqi əsərləri yaratmış teatr, kino, estrada, sirk, ansambl, kapella artistlərinə, rejissorlarına, orkestr və xor dirijorlarına, baletmeysterlərə, musiqi, xor, rəqs və digər kollektivlərin bədii rəhbərlərinə, musiqiçilərə, televiziya və radio verilişləri diktorlarına Azərbaycan incəsənətinin inkişafında xidmətlərinə görə verilir.

«Əməkdar rəssam» fəxri adı mühüm sənət əsərləri yaratmış rəngkarlara, heykəltaraşlara, qrafiklərə, dekorativ-tətbiqi sənət rəssamlarına Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə verilir.

«Əməkdar mədəniyyət işçisi» fəxri adı mədəniyyətin inkişafında xüsusi xidmətlərinə görə mədəni-maarif müəssisələrinin, qəzet və jurnal redaksiyalarının, nəşriyyatların, kitab ticarətinin, poliqrafiya müəssisələrinin, televiziyanın, radio verilişlərinin, kinonun, turist-ekskursiya təşkilatlarının, idarələrinin işçilərinə, bədii özfəaliyyət iştirakçılarına və mədəniyyət idarələri və təşkilatları sisteminin digər işçilərinə mədəniyyət sahəsində azı iyirmi il işlədikdə verilir.

«Əməkdar müəllim» fəxri adı təhsil sahəsində xüsusi xidmətlərinə görə ümumtəhsil, internat, orta-ixtisas məktəblərinin müəllimlərinə və tərbiyəçilərinə, məktəbəqədər uşaq

müəssisələrinin müdirlərinə və tərbiyəçilərinə, uşaq evlərinin tərbiyəçilərinə və xalq təhsili sisteminin digər işçilərinə bu sahədə azı iyirmi il işlədikdə verilir.

«Əməkdar həkim» fəxri adı səhiyyə sahəsində xüsusi xidmətlərinə görə müalicə-profilaktika, sanitariya, sanatoriya-kurort müəssisələrinin, elmi-tədqiqat institutlarının, apteklərin, əczaçılıq zavodlarının, aptek anbarlarının və digər səhiyyə idarələrinin bu sahədə azı iyirmi il işləmiş işçilərinə verilir.

«Əməkdar dövlət qulluqçusu» fəxri adı dövlət qulluğunda xüsusi xidmətlərinə görə icra hakimiyyəti orqanlarında, qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının aparatlarında işləyən qulluqçularına həmin orqanlarda və aparatlarda azı on il işlədikdə verilir.

«Əməkdar memar» fəxri adı Azərbaycan memarlığının inkişafında böyük xidmətlər göstərmiş, yüksək sənət nümunələri olan xatirə abidələrinin, bina və komplekslərin, şəhərsalma sahəsində memarlıq layihələrinin hazırlanmasında və həyata keçirilməsində xüsusi nailiyyətlər əldə etmiş şəxslərə verilir.

Əməkdar bədən tərbiyəsi və idman xadimi» fəxri adı bədən tərbiyəsi və idmanın inkişafında böyük xidmətlər göstərmiş, bu sahənin elmi-tədqiqat və müalicə-sağlamlaşdırma işində, idman kadrlarının hazırlanmasında və tərbiyə edilməsində yüksək nailiyyətlər əldə etmiş şəxslərə verilir.

«Əməkdar jurnalist» fəxri adı uzun illər mətbuat sahəsində çalışan və onun inkişafında xüsusi xidməti olan, peşəkarlığı və sənətkarlığı ilə fərqlənən istedadlı jurnalistlərə və kütləvi informasiya vasitələrinin rəhbərlərinə verilir.

«Əməkdar mühəndis» fəxri adı sənaye, tikinti, nəqliyyat, rabitə, meliorasiya, aqrar sahə müəssisələrində, elmi-tədqiqat və digər təşkilatlarda xüsusi xidmətlər göstərmiş və ixtisas üzrə azı 15 il işləmiş mühəndislərə verilir.

Əməkdar hüquqşünas» fəxri adı hüquq elminin və qanunvericiliyin inkişafında böyük xidmətlərinə, hüquqi biliklərin təbliğində və əhalinin hüquq mədəniyyətinin yüksəldilməsində fəal iştirakına, hüquq problemlərinin aşkar edilməsində və həllində elmi nəticələrinə, hakim vəzifəsinin nümunəvi yerinə yetirilməsinə, hüquq və azadlıqların müdafiəsi sahəsində yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsinə görə fərqlənən qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında, həmçinin vəkillikdə, elm, tədris və digər müəssisə, idarə və təşkilatlarda ixtisas üzrə azı 15 il işləmiş hüquqşünaslara verilə bilər.

5. Azərbaycan Respublikasının prezidenti Azərbaycan Respublikasının fəxri adını öz təşəbbüsü ilə, habelə Azərbaycan Respublikası Milli Məclisinin və ya Nazirlər Kabinetinin təqdimatı əsasında verir.

6. Azərbaycan Respublikası fəxri adının verilməsi haqqında yuxarı orqan və ya təşkilat qarşısında vəsatət, bir qayda olaraq, fəxri ada təqdim edilənin işlədiyi əmək kollektivində qaldırılır.

7. Azərbaycan Respublikası fəxri adının vəsiqəsini və onun döş nişanını Azərbaycan Respublikasının prezidenti, yaxud onun vəkil etdiyi digər şəxslər təntənəli və geniş aşkarlıq şəraitində təqdim edirlər.

8. Azərbaycan Respublikası fəxri adlarının vəsiqələri və döş nişanları Azərbaycan Respublikası Prezidenti İcra Aparatında, Milli Məclisdə, Nazirlər Kabinetində, yaxud fəxri ad alanların işlədikləri əmək kollektivlərində, müxtəlif müşavirələrdə, toplantılarda və digər yığıncaqlarda təqdim edilir.

9. Azərbaycan Respublikası fəxri adının vəsiqəsinin və döş nişanının təqdim edilməsi iki nüsxədən ibarət protokolla rəsmiləşdirilir, həmin protokolu fəxri adın vəsiqəsini və döş nişanını təqdim etmiş şəxs imzalayır və protokola təqdimetməni keçirən orqanın möhürü vurulur.

10. Azərbaycan Respublikasının fəxri adına layiq görülmüş şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş güzəştlərdən istifadə edirlər.

11. Dövlət orqanları, ictimai təşkilatlar, müəssisə, idarə və təşkilatların müdiriyyəti, əmək kollektivləri Azərbaycan Respublikasının fəxri adları verilmiş şəxslərin nailiyyətlərini və xidmətlərini təbliğ etmək sahəsində iş aparır, onların qabaqcıl təcrübəsini yayır, vətəndaşları, böyüməkdə olan nəsli fəxri adlara layiq görülmüş şəxslərin xidmətlərinə hörmət və ehtiram ruhunda tərbiyə edirlər.

12. Azərbaycan Respublikasının fəxri adlarına layiq görülmüş vətəndaşlar fəxri adların döş nişanlarını sağ döşə taxırlar.

13. Azərbaycan Respublikasının fəxri adını almış şəxslər öldükdə fəxri adın vəsiqəsi və döş nişanı yadigar kimi saxlamaq üçün həmin şəxslərin ailələrində qalır və ya onların ailələrinə verilir.

Azərbaycan Respublikasının fəxri adını almış şəxs öldükdə vərəsələrinin razılığı ilə onun fəxri adının vəsiqəsi və döş nişanı saxlamaq və nümayiş etdirilmək üçün muzeylərə, arxivlərə verilə bilər.

Azərbaycan Respublikasının fəxri adını almış şəxs öldükdə vərəsələri olmazsa, onun fəxri adının vəsiqəsi və döş nişanı Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına qaytarılır.

14. Azərbaycan Respublikasının fəxri adını almış şəxslər onların qorunması qayğısına qalmalıdırlar. Fəxri adın vəsiqəsi və döş nişanı itirildikdə həmin şəxslər öz hüquqlarını saxlayırlar.

Azərbaycan Respublikası fəxri adının vəsiqəsi və döş nişanı itirildikdə, bir qayda olaraq, dublikatları verilmir. Həmin fəxri adın vəsiqəsi və döş nişanı döyüş şəraitində, təbii fəlakət nəticəsində, yaxud fəxri ad almış şəxs onların itməsinin qarşısını ala bilmədiyi digər şəraitdə itirildikdə istisna olaraq Azərbaycan Respublikası Prezidentinin razılığı ilə onların dublikatları verilə bilər.

15. Azərbaycan Respublikasının fəxri adını almış şəxs fəxri addan yalnız aşağıdakı hallarda Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə məhrum edilə bilər:

a) fəxri ad almış şəxs ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkum olunduqda — həmin şəxsin məhkum olunması barədə hökmün surəti və məhkəmənin təqdimatına əsasən;

b) Fəxri ad almış şəxs onu ləkələyən xata törətdikdə — fəxri adın verilməsi haqqında təqdimat vermək hüququ olan orqanın təqdimatına əsasən.

16. Azərbaycan Respublikasının fəxri adından məhrum edilmiş şəxsə məxsus olan fəxri adın vəsiqəsi və döş nişanı Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına qaytarılmalıdır.

17. Azərbaycan Respublikasının fəxri adlarının vəsiqələrinə və döş nişanlarına zahirən bənzəyən vəsiqələrin və döş nişanlarının təsis olunması və hazırlanması qadağandır.

## "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 mart tarixli 38 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının təsis edilməsi ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 sentyabr 2007-ci il*
*№ 628*

## Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatının Əsasnaməsi

*Azərbaycan Respublikası Prezidentinin*
*2007-ci il 20 sentyabr tarixli 628 nömrəli*
*Fərmanı ilə təsdiq edilmişdir*

### I. ÜMUMİ MÜDDƏALAR

1. Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 mart tarixli 38 nömrəli Fərmanına əsasən, müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan tarixindəki misilsiz xidmətlərini nəzərə alaraq, onun xatirəsini əbədiləşdirmək məqsədilə təsis edilmişdir.

2. Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı (bundan sonra - Mükafat):

ictimai-siyasi, sosial, iqtisadi, elm, ədəbiyyat və incəsənət sahələrində xüsusi xidmətlərə;

dövlət qulluğunda xüsusi xidmətlərə, yüksək peşə ustalığına və ictimai həyatda fəal iştiraka;

Azərbaycanın müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsində fərqlənməyə;

beynəlxalq münasibətlərdə dostluq və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinə görə verilir.

Bu Mükafatın verilməsi irqi, milli, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırıla bilməz.

3. Mükafat Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin xarici ölkələrin vətəndaşlarına və vətəndaşlığı olmayan şəxslərə verilə bilər.

4. Mükafat bir şəxsə təkrar verilmir.

## II. MÜKAFAT KOMİSSİYASININ FƏALİYYƏTİNİN ƏSASLARI

5. Hər il verilən əlli min manat (50.000) məbləğində olan Mükafat mütəmadi olaraq hər il mayın 10-da - Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin doğulduğu gündə dövlət büdcəsinin vəsaiti hesabına Mükafat Komissiyasının təqdimatı ilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən verilir.

6. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

7. Komissiya müstəqil balansa, müvafiq bank hesablarına, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

8. Komissiyanın fəaliyyətinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Komissiyanın tərkibi və sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən beş il müddətinə müəyyən edilir. Komissiya Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə yenidən təşkil və ləğv edilə bilər.

9.Komissiyanın fəaliyyətinə onun sədri rəhbərlik edir. Komissiya aşağıdakı hüquqlara malikdir:

namizədlərin yaradıcılığını, xidmət və fəaliyyətlərini nəzərdən keçirmək; təqdimat mərasiminin keçirilməsini təşkil etmək;

mükafatla əlaqədar kargüzarlıq işlərinin aparılması üçün Komissiyanın nəzdində üç nəfərdən ibarət katiblik yaratmaq.

10. Mükafat Komissiyası iş planına əsasən toplanır. Komissiyanın iclasları Komissiyanın sədri tərəfindən çağırılır. İclas Komissiya üzvlərinin 2/3-si iştirak etdikdə səlahiyyətli hesab olunur.

Komissiyanın gördüyü işlər və apardığı müzakirələr məxfi saxlanılır.

11. Mükafatın verilməsi barədə Komissiyanın qərarı gizli səsvermə yolu ilə qəbul olunur. Komissiya üzvlərinin ən azı 3/4 hissəsi namizədin lehinə səs verdiyi halda Komissiyanın qərarı qəbul olunmuş hesab edilir.

12. Komissiyanın qəbul etdiyi qərar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə rəsmiləşdirilir. Həmin Sərəncam kütləvi informasiya vasitələrində dərc olunur.

## III. MÜKAFATLANDIRILMANIN ƏSASLARI VƏ ŞƏRTLƏRİ

13. Mükafat üzərində Heydər Əliyevin surəti həkk olunmuş döş nişanı, diplom və pul mükafatından ibarətdir.

14. Döş nişanı qızıldan düzəldilir. Diplom Komissiya tərəfindən tərtib olunur və Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanır. Döş nişanının eskiz və göstəriciləri müsabiqə yolu ilə Mükafat Komissiyası tərəfindən müəyyən olunur.

15. Mükafata layiq görülən yaradıcılıq nümunəsi, xidmət və ya fəaliyyət bir neçə şəxsin məhsuludursa, onların hər birinə ayrı-ayrı döş nişanı və diplom təqdim olunur.

16. Mükafata layiq görülmüş şəxs döş nişanını sağ döşə taxır.

17. Vəfat etmiş, yaxud ölümündən sonra Mükafatla təltif edilmiş şəxsin döş nişanı, diplomu və pul vəsaiti onun vərəsələrinə təqdim olunur, vərəsələri olmadıqda döş nişanı və diplom Komissiyada saxlanılır, pul vəsaiti isə dövlət büdcəsinə qaytarılır.

18. Hər il verilən mükafatın sayı və nominasiyalar Komissiya tərəfindən müəyyən edilir. [1]

## IV. NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ

19. Hər il oktyabr ayının sonunadək Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Milli Məclisinin sədri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, yaradıcılıq təşkilatları, əvvəllər Mükafata layiq görülmüş şəxslər bu Mükafata namizəd irəli sürə bilərlər.

Bir şəxs (təşkilat) Mükafata yalnız bir namizəd təqdim edə bilər.

20. Mükafata təqdim edilən namizədlərin siyahısı mükafatların verilməsinə iki ay qalmış mətbuatda dərc olunur.

21. Sənədlər və namizədlərə dair təkliflər Komissiyaya göndərilməlidir.

## V. TƏQDİMAT MƏRASİMİNİN KEÇİRİLMƏSİ

22. Mükafat Azərbaycan Respublikasının Prezidenti, yaxud onun vəkil etdiyi digər şəxs (şəxslər) tərəfindən təntənəli və aşkarlıq şəraitində təqdim edilir.

23. Laureat və ya onun vəkil etdiyi şəxs mərasimdə şəxsən iştirak etməlidir. Laureat ölümündən sonra təltif edildiyi halda, Mükafat onun vərəsələrinə təqdim olunur.

Təqdimat mərasimində laureatın yaradıcılığı, xidmət və fəaliyyəti haqqında məlumat verilməlidir.

24. Laureat və ya onun vəkil etdiyi şəxsin qarşılanıb yerləşdirilməsi və təqdimat mərasiminə aid digər məsələlərin həlli dövlət büdcəsi hesabına həyata keçirilir.

25. Mükafatın təqdim edilməsi iki nüsxədən ibarət protokolla rəsmiləşdirilir, həmin protokolu Mükafatı təqdim etmiş şəxs imzalayır və protokola Mükafat Komissiyasının möhürü vurulur.

## «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu»nun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında mədəniyyət, incəsənət, ədəbiyyat, elm, təhsil, səhiyyə, jurnalistika, bədən tərbiyəsi və idman, dövlət qulluğu, hüquq, ictimai-siyasi, iqtisadi, beynəlxalq əlaqələr və digər sahələrdə yüksək nailiyyətlər qazanmış şəxslərin əməyinin qiymətləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» təsis edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu haqqında Əsasnamə» layihəsini 15 gün müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 oktyabr 2007-ci il*
*№ 639*

## "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu»nun təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 oktyabr tarixli, 639 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu haqqında Əsasnamə» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Azərbaycan Respublikası Prezidentinin fəxri diplomunun nümunəsini bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 oktyabr 2007-ci il*
*№ 644*

## Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu haqqında Əsasnamə

*Azərbaycan Respublikası Prezidentinin*
*2007-ci il 29 oktyabr tarixli,*
*644 nömrəli Fərmanı ilə təsdiq edilmişdir*

1. Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu (bundan sonra—fəxri diplom) Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 17 oktyabr tarixli, 639 nömrəli Fərmanı ilə təsis edilmişdir.

2. Fəxri diplom Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasında mədəniyyət, incəsənət, ədəbiyyat, elm, təhsil, səhiyyə, jurnalistika, bədən tərbiyəsi və idman, dövlət qulluğu, hüquq, ictimai-siyasi, iqtisadi, beynəlxalq əlaqələr və digər sahələrdə yüksək nailiyyətlər qazanmış Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə, habelə kollektivlərə onların əməyinin qiymətləndirilməsi məqsədi ilə verilir.

3. Bu Əsasnamənin 2-ci bəndində nəzərdə tutulmuş sahələrdən hər hansı birində qazandığı eyni yüksək nailiyyətlərə görə fəxri diplom eyni şəxsə (kollektivə) təkrar verilmir.

4. Bu Əsasnamənin 2-ci bəndində nəzərdə tutulmuş sahələrdən hər hansı birində qazandığı yüksək nailiyyətlərə görə fəxri diplom almış şəxsə (kollektivə) həmin bənddə nəzərdə tutulmuş digər sahələrdə qazandığı yüksək nailiyyətlərə görə yenidən fəxri diplom verilə bilər.

5. Bu Əsasnamənin 2-ci bəndində nəzərdə tutulmuş sahələrdən hər hansı birində qazandığı yüksək nailiyyətlərə görə fəxri diplom almış şəxsə (kollektivə) həmin sahədə qazandığı yeni nailiyyətlərə görə yenidən fəxri diplom verilə bilər.

6. Fəxri diplomun verilməsi haqqında ilkin vəsatət, bir qayda olaraq, fəxri diploma təqdim edilən şəxsin işlədiyi və fəxri diploma təqdim edilən kollektivin tabe olduğu qurumda qaldırılır.

7. Fəxri diplom Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə, habelə Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikası məhkəmələrinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və digər orqanların (təşkilatların) fəxri diploma təqdim edilən şəxs (kollektiv) barədə təqdimatı əsasında verilə bilər.

8. Fəxri diploma təqdim edilən şəxs (kollektiv) barədə təqdimata həmin şəxsin (kollektivin) müvafiq sahədə qazandığı yüksək nailiyyətlər barədə arayış əlavə olunmalıdır.

9. Fəxri diplomda şəxsin (kollektivin) fəxri diplomun verilməsinə əsas olan yüksək nailiyyətlərinin qısa xülasəsi qeyd olunur.

10. Fəxri diplom Azərbaycan Respublikasının Prezidenti və ya onun vəkil etdiyi digər şəxslər tərəfindən təntənəli və geniş aşkarlıq şəraitində təqdim edilir.

11. Fəxri diplom Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında, habelə bu Əsasnamənin 7-ci bəndində nəzərdə tutulmuş orqanlarda (təşkilatlarda), fəxri diplom verilən şəxslərin işlədikləri əmək kollektivlərində, müxtəlif müşavirələrdə, toplantılarda və digər yığıncaqlarda təqdim edilir.

12. Fəxri diplomun təqdim edilməsi fəxri diplom verilən şəxs və ya kollektivin üzvləri tərəfindən imzalanan və fəxri diplomu təqdimetməni həyata keçirən orqanın (təşkilatın) möhürü vurulan protokolla rəsmiləşdirilir. Protokol Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına təqdim edilir.

13. Fəxri diplom almış şəxs vəfat etdikdə, məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə, fəxri diplom həmin şəxsin ailəsinə və ya yaxın qohumlarına təqdim edilir.

14. Fəxri diplom almış şəxs vəfat etdikdə vərəsələrinin razılığı ilə onun fəxri diplomu saxlanmaq və nümayiş etdirilmək üçün muzeylərə, arxivlərə verilə bilər.

15. Fəxri diplom almış kollektiv üzvlərinin razılığı ilə fəxri diplom saxlanmaq üçün kollektivin tabe olduğu qurumda saxlanıla və ya nümayiş etdirilmək üçün muzeylərə, arxivlərə verilə bilər.

16. Fəxri diplom itirildikdə, bir qayda olaraq, onun dublikatı verilmir. Fəxri diplom fövqəladə vəziyyət hallarında və ya fəxri diplom almış şəxs (kollektiv) onun itməsinin qarşısını ala bilmədiyi digər şəraitdə itirildikdə Azərbaycan Respublikası Prezidentinin razılığı ilə onun dublikatı verilə bilər.

17. Fəxri diplom almış şəxs fəxri diplomdan yalnız aşağıdakı hallarda Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə məhrum edilə bilər:

17.1. fəxri diplom almış şəxs ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkum olunduqda—həmin şəxsin məhkum olunması barədə hökmün surəti və məhkəmənin təqdimatına əsasən;

17.2. fəxri diplom almış şəxs (kollektiv) fəxri diplomla bir araya sığmayan hərəkət etdikdə—fəxri diplomun verilməsi haqqında təqdimat vermək hüququ olan orqanın (təşkilatın) təqdimatına əsasən.

18. Fəxri diplom almış kollektiv üzvü tərəfindən bu Əsasnamənin 17-ci bəndində nəzərdə tutulmuş hallara yol verilməsi həmin kollektivin fəxri diplomdan məhrum edilməsinə əsas vermir.

19. Fəxri diplomdan məhrum edilmiş şəxsdə olan həmin fəxri diplom Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına qaytarılmalıdır.

20. Dövlət orqanları, ictimai və digər təşkilatlar, əmək kollektivləri fəxri diplom almış şəxslərin (kollektivlərin) nailiyyətlərini təbliğ etmək sahəsində iş aparır, onların qabaqcıl təcrübəsini yayır, vətəndaşları, diplom almış şəxslərin nailiyyətlərinə ehtiram ruhunda tərbiyə edirlər.

# İstifadə olunmuş ədəbiyyat


- Azərbaycan Respublikasının qanunvericilik topluları. (1997-2017).
- Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə, "Azərbaycan" cildi. Bakı, 2007, "Azərbaycan Respublikasının orden və medalları" məqaləsi.
- Azərbaycan Demokratik Respublikasının rəmzləri. (1918-1920). Albom. Bakı, "İşıq". 1992.
- Санубар Касимова. Фалеристика Азербайджана первой половины XX века, «İRS- Наследие», №3, 2009 г., с. 24-28.


## İnternet resursları


- www.president.az
- www.preslib.az
- www.e-qanun.az
- https://azertag.az
- www.vesconsultancy.com